# Soros Ermənistanda pul paylayır

Qrant alanların arasında dövlət məmurları, iqtidar deputatları, hətta səfirlər də var



**Hazırda postmünaqişə dövrü olmasına baxmayaraq, Soros fondu Ermənistandakı layihələrin həyata keçirilməsi üçün vəsait xərcləməkdə davam edir.**

Məsələn, 2021-ci il ərzində bu fondun ayırdığı 1,2 milyon dollar vəsait Ermənistanda müxtəlif şəxslərə qrant şəklində paylanıb.

Bu fikirlər "İravunk" məşrində dərc olunan eyniadlı analitik məqalədə yer alıb. Bildirilib ki, fond bu dəfə fiziki şəxslərə qrant ayırmayıb.

(səh.2)



## Azərbaycanda zəlzələ baş verib

**Hacıqabul rayonunda zəlzələ baş verib.**

Respublika Seysmoloji Xidmət Mərkəzinin məlumatına görə, yerli vaxtla saat 17:56-da Əli-Bayramlı stansiyasından 11 km qərbdə Hacıqabul rayonunda zəlzələ qeydə alınıb. Yeraltı təkanların gücü 3.4 bal, dərinliyi 6 km olub. Zəlzələ hiss olunmayıb.


№ 23 (5545), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 fevral 2022-ci il (çərşənbə axşamı)




# Bütün yollar meriya və DİN-in nəzarətində olacaq

Nəqliyyat sahəsi həddindən artıq gərgin sahədir, əl-ələ verib işləmək lazımdır

**Prezident İlham Əliyev Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında fərman imzalayıb.**

Fərmana əsasən, Bakı Nəqliyyat Agentliyi publik hüquqi şəxs statusu ilə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə verilib.

Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi həvalə olunan Azərbaycan Respublikasının Prezidenti Agentliyin yenidən təşkil və ləğv edilməsi, Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsini həyata keçirəcək. Eyni zamanda NK Prezidentlə razılaşdırmaqla Agentliyin idarəetmə orqanlarının yaradılması; işçilərinin say həddinin təsdiqi; "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə uyğun olaraq Agentliyin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsini gerçəkləşdirəcək.

(səh.3)



## "Allaha şükür vəziyyətimiz yaxşıdır"

Ərdoğanın həyat yoldaşı "Twitter" səhifəsində yazıb

**Koronavirusun "omikron" ştammına yoluxmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın vəziyyəti yaxşıdır və məsafədən işləməyə davam edir.**

Bunu özünün "Twitter" səhifəsində R.T.Ərdoğanın həyat yoldaşı Əminə Ərdoğan yazıb.

"COVID-19 üzrə testlərimizin cavabı müsbət çıxdıqdan sonra Tayyib bəy və mən evdə dincəlməyə və uzaqdan işləməyə davam edirik. Allaha şükür vəziyyətimiz yaxşıdır", - deyə Əminə Ərdoğan yazıb.

*Xatırladaq ki, fevralın 5-i Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan öz rəsmi "Twitter" hesabında özünün və həyat yoldaşının yeni növ koronavirus (COVID-19) infeksiyasının "omikron" ştammına yoluxduğunu bildirmişdir.*

## Milli Məclis Azərbaycanla Türkiyə arasında daha bir sənədi təsdiq edəcək



**Azərbaycanla Türkiyə arasında daha bir sənəd Milli Məclisin plenar iclasına tövsiyə edilib.**

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin dünən keçirilən iclasında "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə məsələ müzakirəyə çıxarılıb.

(səh.4)

# 8 erməni hərbçi qarşı tərəfə təhvil verilib

İndi top Ermənistandadır, Paşinyan öhdəliklərinə əməl etməlidir



**Ermənistan tərəfi Birinci Qarabağ müharibəsində itkin düşmüş Azərbaycan vətəndaşlarının aqibəti, daha doğrusu, harada basdırıldıqları barədə məlumat verəcəyini deyib. Fevralın 4-də Fransa Prezidenti E.Makronun təşəbbüsü ilə Azərbaycan və Ermənistan rəhbərliyi arasında videoformatda keçirilən görüşdə bu məsələ də gündəmə gətirilib.**

Görüşdə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel iştirak edib. Prezident İlham Əliyev müharibədə itkin düşmüş vətəndaşlarımızın kütləvi məzarlıqlarının yerləşmə yerləri barədə məlumatın Azərbaycan tərəfinə verilməsinə dair məsələ qaldırıb. Ermənistan tərəfi isə bu məsələdə əməkdaşlıq edəcəyinə dair öhdəlik götürüb. Qeyd olunan məsələ Makron tərəfindən də dəstəklənib. Ermənistanın itkinlərimizlə bağlı həqiqəti əks etdirən məlumatları qarşılığında 8 erməni hərbçi İrəvana təhvil verilib. Dövlət Təhlükəsizlik Xidmətindən bildirilib ki, Ermənistan tərəfinə qaytarılanlar 2021-ci ilin 16 noyabr tarixində Kəlbəcər rayonu istiqamətində saxlanılan hərbi qulluqçulardır. Rəsmi Bakının humanitar xarakterli bu addımının əvəzində Ermənistan tərəfi kütləvi məzarlıqların yerləri barədə məlumatı Azərbaycana verməlidir. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaar Azərbaycanın 8 erməni hərbçini Ermənistana təhvil verməsini alqışlayıb:

(səh.3)

# Nə ilk təxribatdır, nə də sonuncu...



Rusiya sülhməramlılarına şikayət etməklə erməni quldurlarının hərəkətlərinin qarşısı alınmayacaq

**Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlıları yenidən təxribata əl atıblar. Fevralın 6-da Tərtər rayonunun Qapanlı kəndi erməni separatçıları tərəfindən atəşə məruz qalıb.**

Müdafiə Nazirliyinin məlumatına görə, hadisə nəticəsində mülki əhali və bölmələrimizin şəxsi heyəti arasında xəsarət alan olmayıb. Sadəcə, Qapanlı yaşayış məntəqəsi ərazisindəki mülki tikiliyə ziyan dəyib. Təxribat törədən qanunsuz erməni silahlı dəstəsinin üzvlərinin spirtli içkinin təsiri altında atəş açmaları müşahidə edilib. Hadisə ilə bağlı dərhal Rusiya sülhməramlı kontingentinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə məlumat verilib. Ekspertlər vurğulayıblar ki, atəşin keçmiş Ağdərə - müharibədən sonra erməni terrorçuların qaldığı ərazidən açılması 10 noyabr razılaşmasının hələ də icra edilməyən 4-cü bəndini yenidən aktuallaşdırır.

(səh.3)

## Yoluxma sayları çox yüksəkdir

Hande Harmancı: "Qapanmalarla bağlı hökumət qərar verə bilər"



**"Dünyada oduğu kimi Azərbaycanda da "Omikron"la bağlı yoluxma sayında yüksək artım görünür".**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, "Omikron"a qarşı görüləcək tədbirlər də digər ştamlardakı ilə eynidir: "Peyvənd olunmayanları vaksinasiyaya dəvət edirəm. Yoluxma sayları çox yüksəkdir, amma bu xəstəlik əsasən yüngül keçir. Ölüm saylarında artım yoxdur. Bundan sonra da yeni ştamlar yarana bilər. Qapanmalarla bağlı hökumət qərar verə bilər". O qeyd edib ki, ÜST və UNİCEF məktəblərin açıq qalmasının tərəfdarıdır: "Qapanmalarin lokal olaraq həyata keçirilməsini tövsiyə edirik".

## Son sutkada 4 680 nəfər koronavirusa yoluxub

27 nəfər vəfat edib, 2 134 nəfər isə müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 680 yeni yoluxma faktı qeydə alınıb, 2 134 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış nəfər 27 vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 703 334 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 648 512 nəfər müalicə olunaraq sağalıb, 8 898 nəfər vəfat edib, aktiv xəstə sayı 45 924 nəfərdir.

Ölkədə son sutka ərzində 11 442, hazırkı dövrədək isə 6 278 899 test aparılıb.



## Təxribatlar yenə olacaq

Rusların və ermənilərin nazı ilə oynamaq bizə ziyan verir

(səh.2)

## Bakı üzərinə düşən öhdəliyi həmişə yerinə yetirib

Tural Gəncəliyev: "İndi biz Ermənistandan da eyni münasibəti gözləyirik"

(səh.4)



# Nazir bölgədəki cari vəziyyətdən danışdı

## Ceyhun Bayramov Türk Dövlətləri Təşkilatının Baş katibi ilə görüşüb



**7 fevral 2022-ci il tarixində xarici işlər naziri Ceyhun Bayramov Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə verilən xəbərə görə, nazir Ceyhun Bayramov Azərbaycanın Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlığa yüksək əhəmiyyət verdiyini qeyd edib və Türk Şurasının Katibliyinin fəaliyyətini məmnunluqla vurğulayıb.

Bölgədəki cari vəziyyətlə bağlı qarşı tərəfə məlumat verən nazir, o cümlədən azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işlərindən bəhs edib. Bu xüsusda, Türk Dövlətləri Təşkilatının üzv ölkələrinin infrastrukturun qurulması prosesində iştirakının önəmli olduğu qarşı tərəfin diqqətinə çatdırılıb.

Baş katib Bağdad Amreyev Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsində aktiv fəaliyyətini və dəstəyini məmnunluqla qeyd edib. Həmçinin o, Türk Dövlətləri Təşkilatının digər beynəlxalq və regional təşkilatlar ilə əməkdaşlıq perspektivlərindən danışıb.

*Görüşdə Türk Dövlətləri Təşkilatının gündəliyində olan digər məsələlər, habelə növbəti aylarda keçirilməsi nəzərdə tutulan görüşlər və tədbirlər barədə müzakirələr aparılıb.*

**Prezident İlham Əliyev Azərbaycan Respublikası prokurorluq orqanlarının hərbi prokurorluq işçiləri olmayan hərbi qulluqçularının aylıq pul təminatının artırılması haqqında Fərman verib.**



Fərmanla Azərbaycan Respublikası prokurorluq orqanlarının hərbi prokurorluq işçiləri olmayan

# Hərbi prokurorluq işçiləri olmayan hərbçilərin maaşları 20 faiz artırıldı

hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə qərara alınır:

- Azərbaycan Respublikası prokurorluq orqanlarının hərbi prokurorluq işçiləri olmayan hərbi qulluqçularının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.

- Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

- Azərbaycan Respublikasının Hərbi Prokurorluğu və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

- Bu Fərman 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

# Soros Ermənistanda pul paylayır

## Qrant alanların arasında dövlət məmurları, iqtidar deputatları, hətta səfirlər də var



**Hazırda postmünaqişə dövrü olmasına baxmayaraq, Soros fondu Ermənistandakı layihələrin həyata keçirilməsi üçün vəsait xərcləməkdə davam edir. Məsələn, 2021-ci il ərzində bu fondun ayırdığı 1,2 milyon dollar vəsait Ermənistanda müxtəlif şəxslərə qrant şəklində paylanıb.**

Azərtac xəbər verir ki, bu fikirlər "İravunk" nəşrində dərc olunan eyniadlı analitik məqalədə yer alıb.

Bildirilib ki, fond bu dəfə fiziki şəxslərə qrant ayırmayıb. Redaksiyanın apardığı araşdırmalardan aydın olur ki, bu dəfə qrant ayrılanlardan biri "İnkişaf və hüquq müdafiəsi" fondunun həmtəsisçilərindən biri, parlamentdəki "Vətəndaş müqaviləsi" hakim fraksiyasına daxil olan Harusyak Culxakyandır. O da bəlli olur ki, sifətinə Mona Lizanın mübhəm təbəssümü hopmuş bu xanım deputat Soros fondundan 24,5 min, ona yaxın olan Jenya Mailyanın "Real adamlar və real dünya"sı 24 min 668, ona heç də kənar adam sayılmayan Vayolet Çopunyanın "Hüquq İnkişafı Mərkəzi" 37 min 750, hüquq müdafiəçilərini koordinasiya edən Zarui Hovhanesyan 28 min, Daniel İonasyanın "Məlumatlı Vətəndaşlar İttifaqı" 50 min, Lusine Vasilyanın "Mandat"ı 70 min, "Diskriminasiyaya qarşı və birlik naminə"si 43 min 100, Edik Bağdasaryanın "Araşdırmaçı jurnalistlər"i 90 min dollar və "soros dəyərləri"nin digər keşikçiləri ümumilikdə 1,2 milyon dollar qrant alıblar.

Yazıda diqqətçəkən məqam odur ki, qrant alanların arasında dövlət məmurları, iqtidar deputatları, hətta səfirlər də var. Bu şəxslərin hamısı 2021-ci il parlament seçkilərində bu və yaxud digər dərəcədə kifayət qədər fəallıqları ilə seçiliblər.

**Məqalə bu sualla tamamlanır**: "Bütün bunların demokratiya ilə nə əlaqəsi var və nəyə görə bu hallar öz adı ilə - korrupsiya adlandırılmır".

Bütün bunlar Ermənistanda bir sıra dairələrin hələ də Sorosun təsiri altında olduğunu isbatlayır.

**Dünən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə Müdafiə Nazirliyinin bir qrup yüksək rütbəli zabit heyəti və hərbi qulluqçular şəhidimizin məzarını ziyarət edib, üzərinə gül dəstələri düzüblər.**



Müdafiə Nazirliyindən "Şərq"ə verilən xəbərə görə, sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində qəhrəmanın anım tədbiri keçirilib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xati-

# Milli Qəhrəmanın şərəfli ömür və döyüş yolu

## Mübariz İbrahimovun xatirəsi anılıb

rəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Milli Qəhrəman Mübariz İbrahimovun şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarx təqdim olunub.

Anım tədbirində çıxış edənlər Milli Qəhrəmanın göstərdiyi şücaət və qəhrəmanlıqdan danışıb, Mübariz İbrahimovun vətənpərvərlik və mübarizlik hissinin yüksək olduğunu qeyd ediblər.

Bildirilib ki, şəhid hərbi qulluqçumuz qısa ömür yaşasa da, Vətən yolunda canından keçərək gənclərə örnək olacaq bir addım atıb.

Qeyd olunub ki, Mübariz İbrahimovun göstərdiyi rəşadət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən tədbir iştirakçılarına vətənpərvərlik mövzusunda musiqilər təqdim olunub.

**Sənan İsmayıl**



# Təxribatlar yenə olacaq

## Rusların və ermənilərin nazı ilə oynamaq bizə ziyan verir

**Qarabağdakı Rusiya sülhməramlı kontingenti Azərbaycana məxsus heç bir avtomobil karvanına erməni yaraqlısının yaxınlaşmayacağına dair zəmanət verib. Xatırladaq ki, bir neçə gün bundan öncə Azərbaycana məxsus yük maşınlarının sülhməramlılarla yanaşı, "polis" üniformalı erməni separatçısı tərəfindən yoxlanması qalmaqala səbəb olmuşdu.**

Sosial şəbəkədə yayılan görüntülər Azərbaycan ictimaiyyəti tərəfindən qəzəblə qarşılanmış, mətbuatda sərt tənqid olunmuşdu. Görünür, rəsmi Bakının ciddi xəbərdarlığından sonra Rusiya sülhməramlı kontingentinin rəhbərliyi narazılıq doğuran hadisənin təkrar olunmayacağına söz verib.

> "Türkiyənin hərbi birləşmələri de-yure Azərbaycanda olmalıdır"

**Politoloq Əhəd Məmmədli "Şərq" bildirib ki, Rusiya sülhməramlıları verdikləri sözə sadiq qalmayacaq. Onun sözlərinə görə, müəyyən müddət sonra ruslar erməni təxribatlarına yenə göz yummağa başlayacaq:** "Erməni separatçıları Qarabağda qaldıqları müddətcə müxtəlif təxribatlara hazır olmalıyıq. Rusların erməni quldurlarını müvəqqəti gözümüzdən yayındırmaları, kənarda saxlamaları separatçıların Qarabağda varlığına son qoymur. Torpaqlarımızdakı bütün silahlı birləşmələri dərhal çıxartmaq lazımdır. Ya özümüz anti-terror əməliyyatı aparmalıyıq, ya da rusların əliylə ermənilərdən qurtulmağın yollarını tapmalıyıq. Torpaqlarımıza nəzarəti özümüz həyata keçirməliyik. Ordu birləşmələrimizi dərhal həmin ərazilərə yerləşdirməliyik. Ümumiyyətlə, 2022-ci il Azərbaycanda "Xankəndi ili" olmalıdır. Məsələni birdəfəlik, kökündən həll etməliyik. Şuşa Bəyannaməsinin Türkiyə və Azərbaycan tərəfdən rəsmi təsdiqlənməsindən sonra qardaş ölkənin hərbi birləşmələri de-yure Azərbaycanda olmalıdır. Bu, Rusiyaya qarşı ən yaxşı təzyiq rıçağıdır. Rusların və ermənilərin nazı ilə oynamaq bizə ziyan verir. Elə etməliyik ki, rus sülhməramlılarının ölkəmizdə qalma müddəti başa çatdıqdan sonra vaxtı uzatmaq üçün əllərində bəhanə olmasın".

**İsmayıl Qocayev**

# Fransa Qarabağdakı reallıqlarla üz-üzədir

**Fevralın 4-də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyanın videoformatda görüşü keçirilib.**




## Makron çalışır ki, post-münaqişə dövründə Azərbaycan-Ermənistan münasibətlərində vasitəçi kimi iştirak etsin

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin də qatıldığı görüşdə Brüssel gündəliyinin davamı olaraq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələr aparılıb. İki ölkə arasında humanitar məsələlər, etimad quruculuğu, mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlər gündəmə daşınıb. Prezident İlham Əliyev müzakirə olunan məsələlər barədə Azərbaycanın mövqeyini bir daha vurğulayıb. Dövlət başçısı itkin düşmüş şəxslərin taleyi, minaların təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələsinə xüsusi olaraq diqqət verib. Görüşdə, həmçinin UNESCO-nun Azərbaycana və Ermənistana missiyası məsələsi də müzakirə olunub. Missiyanın hər iki ölkəyə göndərilməsinə dair razılıq ifadə edilib. Qeyd edək ki, Azərbaycan və Ermənistan liderləri bu illər ərzində müxtəlif təmaslar olub. Ancaq videoformat əsasında görüş ilk dəfə keçirilib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Şərq"ə deyib ki, Avropa İttifaqının hazırkı sədri Fransa Azərbaycanla Ermənistan arasında moderatorluğa çalışır. Analitikin sözlərinə görə, Azərbaycan Brüsselin moderatorluğunun əleyhinə deyil. Lakin Fransanın moderatorluğu Azərbaycanda suallar doğurur:** "Fransadakı siyasi dairələr Ermənistanın mövqeyini müdafiə etdiklərini gizlətmirlər. Ayrı-ayrı siyasətçilər Qarabağ separatçılarına dəstək ifadə edirlər. Fransa Azərbaycanla Ermənistan arasında vasitəçilərindən biri olmaq üçün xarici siyasətinin bu istiqamətini korrektə etməlidir. Bu olmazsa, Parisin moderatorluğu bir işə yaramayacaq". Ekspert xatırladıb ki, apreldə Fransada prezident seçkisidir. Əgər Makron yenidən namizədliyini irəli sürəcəksə, xarici siyasətdə fəallığını artırmalıdır: "Makron Kiyevlə Moskva arasında da vasitəçiliyini genişləndirmək istəyir".

**Siyasi şərhçi Asif Nərimanlı da "Şərq"ə bildirib ki, Makron Merkeldən sonra Avropanın lideri olmaq istiqamətində çalışır. Ekspertin fikrincə, Aİ-yə sədrliyi üzərinə götürən Fransa Prezidenti belə bir görüşün təşkilində maraqlıdır:** "Fransa münaqişənin həllində uzaq düşdüyü bölgəyə Aİ-yə sədrliyi dövründə qayıtmaq istəyir. Burada əsas məqam "Fransanın prosesə qayıtması Minsk qrupu formatının dirilməsinə şərait yarada bilərmi" sualıdır. Bu sualın cavabına, eləcə də Makronun aktivləşməsi və görüşün keçirilməsinə Rusiya-ABŞ qarşıdurması kontekstində yanaşmaq lazımdır. Paris və Berlin Moskvaya qarşı Vaşinqton cəbhəsində yer almır. Burada enerji maraqları ilə yanaşı, NATO daxilində cəbhələşmə də həlledici rol oynayır. Makronun fevralın 7-də Putinlə görüşə hazırlığı, fevralın 15-də Şolzun Moskvaya planlaşdırılan səfəri də deməyə əsas verir ki, Rusiya ABŞ-la qarşıdurmada Avropa üzərindən bir addım öndədir. Mümkündür ki, Makronun bunun qarşılığında ruslardan istədiyi məsələlərdən biri də münaqişədən sonra uzaq düşdüyü Cənubi Qafqazda aktivləşmək, Azərbaycan-Ermənistan münasibətlərində vasitəçi kimi iştirak etməkdir. Fransa prezidenti bununla Avropanın yeni liderlik missiyasını gücləndirir. Aİ-yə sədrlik edən ölkə kimi Brüsselin Bakı-İrəvan xəttində vasitəçiliyini üzərinə götürür. Kiçik detal da olsa, prezident seçkiləri öncəsi bu gedişlər Fransadakı 700 minə yaxın erməni icmasının dəstəyini qazanmağa imkan yarada bilər. Ümumən isə Fransanın görüşü Minsk qrupunun həmsədrindən daha çox, Aİ-nin sədri kimi təşkil etdiyini deyə bilərik. Makron və Şarl Mişelin görüşün yekunlarına dair birgə bəyanatında diqqətçəkən detallar bu fikri önə çıxarır. Mişel və Makronun birgə bəyanatında Minsk qrupuna istinad edilmir. "Dağlıq Qarabağ münaqişəsi" qeydi yoxdur. Ümumiyyətlə, Qarabağın adı çəkilmir. Bu o deməkdir ki, Qarabağ məsələsi Bakının istəyinə uyğun olaraq gündəlikdən çıxıb. Deməli, görüş və bəyanat postmünaqişə dövrünə həsr edilib".

**İsmayıl Qocayev**

# Bütün yollar meriya və DİN-in nəzarətində olacaq

## Nəqliyyat sahəsi həddindən artıq gərgin sahədir, əl-ələ verib işləmək lazımdır



*BNA-nın icra hakimiyyətinin tabeliyinə verilməsi bundan sonra işlər yaxşı gedəcək demək deyil. Əgər orada idarəetmə düzgün qurulsa və işi bilən mütəxəssislərlə çalışıb, iş prinsiplərini elmi cəhətdən əsaslandırsalar yaxşı olacaq*

Sənan İsmayıl

**Prezident İlham Əliyev Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında fərman imzalayıb.**

Fərmana əsasən, Bakı Nəqliyyat Agentliyi publik hüquqi şəxs statusu ilə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə verilib.

Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi həvalə olunan Azərbaycan Respublikasının Prezidenti Agentliyin yenidən təşkil və ləğv edilməsi, Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsini həyata keçirəcək.

Eyni zamanda NK Prezidentlə razılaşdırmaqla Agentliyin idarəetmə orqanlarının yaradılması; işçilərinin say həddinin təsdiqi; "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə uyğun olaraq Agentliyin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsini gerçəkləşdirəcək.

Bakı Şəhər İcra Hakimiyyəti bu Fərmanın 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli ilə məşğul olacaq.

Agentliyin tabeliyində olan "Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti isə bu fərmanla Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyinə verilir.

Nazirlər Kabineti Agentliyin yeni nizamnaməsini üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etməlidir.

Həmçinin bu Fərmanın 1-ci və 3-cü hissələri ilə əlaqədar olaraq Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkili, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində həyata keçirilən fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı normativ hüquqi aktların layihələrini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

NK-ya Fərmanın 3-cü hissəsinə uyğun olaraq Agentliyin balansında olan və "Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin funksiyalarının təmin edilməsi üçün zəruri olan dövlət əmlakının və maddi-texniki bazanın Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin balansına verilməsini bir ay müddətində təmin etmək, eləcə də Fərmandan irəli gələn digər məsələlərin həllini həvalə olunub.

**Fərmanda öz əksini tapan yeniliklərlə bağlı "Şərq" açıqlama verən nəqliyyat üzrə ekspert Fərhad Eyyubov bildirib ki, bundan sonra hər iki qurum birlikdə mövcud problemlərin həlli üçün çalışmalıdır.**

"BNA-nın neçə illərdir fəaliyyəti göz qabağındadır. Xeyli iş görüblər. Nəqliyyat sahəsində əvvələ nisbətən indi çox fərq var. Nazirlər Kabinetinin "Mobillik haqqında" qərarında da çoxlu məsələlər ortaya qoyulub. Həmin məsələləri yerinə yetirmək üçün isə maddi və kadr resursları, eyni zamanda BŞİH ilə koordinasiyalı şəkildə hərəkət etmək lazımdır.

Nəqliyyat sahəsində vaxtaşırı islahatlar hər zaman aparılıb. Ümumiyyətlə, nəqliyyat təsərrüfatı həddindən artıq gərgin sahədir. Onu tənzimləmək üçün müəyyən islahatlar indi də aparılmalı idi. Buna görə də BNA-nın indiyə qədərki fəaliyyəti qiymətləndiriləsək bu qərar verilib. Bakı Şəhər İcra Hakimiyyəti də bu məsələlərə ciddi yanaşmalıdır. Çünki nəqliyyat sahəsində dərin işlər aparılmalıdır. Bu qurum bir agentlik kimi onların nəzarətində öz fəaliyyətini davam etdirəcək. Agentliyin strukturunda müəyyən dəyişikliklər olunsa da, iş prinsipləri olduğu kimi qalacaq. İcra hakimiyyətinin tabeliyinə verilməsi bundan sonra işlər yaxşı gedəcək demək deyil. Əgər orada idarəetmə düzgün qurulsa və işi bilən mütəxəssislərlə çalışıb, iş prinsiplərini elmi cəhətdən əsaslandırsalar yaxşı olacaq. Əks halda bir müddət sonra yenidən islahatlar aparılacaq.

Bundan sonra nəqliyyat sisteminin formalaşdırılması üçün müəyyən işlər görülməlidir. İnsanlardan pul yığmaq, cərimələmək üçün deyil. Bunlar da işin bir hissəsidir, ancaq əsas işin təşkilidir. İndi hər iki qurum əl-ələ verib, bu məsələlərin həlli üçün müəyyən işlər görməli və yeniliklər etməlidir".

**Məsələyə münasibətini bildirən digər ekspert Elməddin Muradlının sözlərinə görə isə əsas hədəf Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsidir.**

"Burada əsas yenilik BNA-nın Bakı Şəhər İcra Hakimiyyətinə və Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin DİN-in tabeliyinə verilməsidir. Bundan sonra 3 ay müddətində hansı işlər görüləcək, onlar ölkə prezidentinə təqdim olunmalıdır. Əgər İntellektual İdarəetmə Mərkəzi DİN-ə verilirsə, cərimələri də yol polisi yazacaq. Qanunvericilikdə də bu barədə dəyişiklik edilir. Kamera vasitəsilə cərimələnmə bundan sonra qanuni olacaq. Əslində yol polisinin tabeliyində say etibarilə daha çox kamera var. Lakin hamısı bir mərkəzə inteqrasiya edilsə, işin təşkili daha səmərəli olacaq. Bundan sonrakı addımlar da fərmana əsasən atılacaq. Agentlik yenidənmi formalaşacaq? Bunu indidən demək çətindir. Zamanla görəcəyik".

---



**Ermənistan tərəfi Birinci Qarabağ müharibəsində itkin düşmüş Azərbaycan vətəndaşlarının aqibəti, daha doğrusu, harada basdırıldıqları barədə məlumat verəcəyini deyib. Fevralın 4-də Fransa Prezidenti E.Makronun təşəbbüsü ilə Azərbaycan və Ermənistan rəhbərliyi arasında videoformatda keçirilən görüşdə bu məsələ də gündəmə gətirilib.**

# 8 erməni hərbçi qarşı tərəfə təhvil verilib

## İndi top Ermənistandadır, Paşinyan öhdəliklərinə əməl etməlidir

Görüşdə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel iştirak edib. Prezident İlham Əliyev müharibədə itkin düşmüş vətəndaşlarımızın kütləvi məzarlıqlarının yerləşmə yerləri barədə məlumatın Azərbaycan tərəfinə verilməsinə dair məsələ qaldırıb. Ermənistan tərəfi isə bu məsələdə əməkdaşlıq edəcəyinə dair öhdəlik götürüb. Qeyd olunan məsələ Makron tərəfindən də dəstəklənib. Ermənistanın itkinlərimizlə bağlı həqiqəti əks etdirən məlumatları qarşılığında 8 erməni hərbçi İrəvana təhvil verilib. Dövlət Təhlükəsizlik Xidmətindən bildirilib ki, Ermənistan tərəfinə qaytarılanlar 2021-ci ilin 16 noyabr tarixində Kəlbəcər rayonu istiqamətində saxlanılan hərbi qulluqçulardır. Rəsmi Bakının humanitar xarakterli bu addımının əvəzində Ermənistan tərəfi kütləvi məzarlıqların yerləri barədə məlumatı Azərbaycana verməlidir. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaar Azərbaycanın 8 erməni hərbçini Ermənistana təhvil verməsini alqışlayıb: "Bu, dördtərəfli görüşdən sonra mühüm humanitar jestdir". Xatırladaq ki, Ermənistan 30 il ərzində onların girovluğunda azərbaycanlıların olmadığını və kütləvi məzarlıqlar mövzusunun Azərbaycanın "dezinformasiyası" olduğunu iddia edirdi. Kütləvi məzarlıqların yerinin tapılması Ermənistanın nüfuzuna ciddi zərbə olacaq. Kütləvi məzarlıqlar Ermənistanın keçmiş rəhbərliyinin insanlığa qarşı daha bir amansız cinayətinin faktıdır.

> "Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4000-nə yaxın vətəndaşımızın siyahısı yenidən, daha dəqiq tərtib olunmalıdır"

**İrəvanın üzərinə götürdüyü öhdəliyi "Şərq"ə dəyərləndirən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı deyib ki, məsələ sadəcə itkin düşmüş şəxslərin yaxınlarının deyil, bütün Azərbaycan xalqının diqqətindədir. İtkin düşmüş şəxslərin ailə üzvləri ilə mütəmadi təmasda olduğunu deyən QAT sədrinin sözlərinə görə, illər ötsə də, itkin yaxınlarının nigarançılığı qalmaqdadır:** "Bilmək istəyirlər ki, yaxınları hansı şəraitdə, necə dünyasını dəyişib, harada basdırılıb. Biz də mümkün qədər itkinlərlə bağlı prosesi gündəmdə saxlamağa çalışmışıq. Dövlət başçısı İlham Əliyevin məsələni mühüm görüşdə yenidən qabartması çox önəmlidir. Bu məsələ danışıqların vacib elementi kimi ortaya qoyulur. Qərb nümayəndələrinin də iştirak etdiyi dördtərəfli görüş və aparılan müzakirələr böyük əhəmiyyət kəsb edir. Ermənistan Baş naziri Nikol Paşinyan üzərinə öhdəlik götürsə və itkinlərlə bağlı məsələyə fərqli, təkzibedici mövqe sərgiləmirsə, bu xəttin davam edəcəyinə ümidlə yanaşmaq olar. Bunun müqabilində 8 erməni hərbçinin İrəvana təhvil verilməsi də doğru addımdır. Şübhə yox ki, ölkə başçısının müraciətindən sonra məsələ hüququ müstəvidə də tənzimlənəcək".

**A.Nağı vurğulayıb ki, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4000-nə yaxın vətəndaşımızın siyahısı yenidən, daha dəqiq tərtib olunmalıdır:** "Əlimizdəki bütün dəlil-sübutlardan istifadə etməliyik. Paşinyanın öhdəliyi ilə yanaşı, beynəlxalq strukturları, məhkəmələri də işə qoşmalıyıq. Ermənistan tərəfini itkin düşmüş şəxslərin aqibəti, kütləvi məzarlıqlarla bağlı məlumat verməyə məcbur etməliyik. Onsuz da işğaldan azad olunmuş ərazilərdə tədqiqatlar, axtarışlar aparılacaq. Gec-tez itkin şəxslərimizlə bağlı izlərə rast gələcəyik. Amma Ermənistanın öz cinayətlərini bəri başdan etiraf etməsi onların xeyrinə olar. İstənilən halda erməni tərəfi hər cinayətinə görə cəzalandırılmalıdır. Əminəm ki, işin gedişində təsadüfən kütləvi məzarlıqlar ortaya çıxacaq. Ermənistanın itkin düşmüş şəxslərlə bağlı məlumat verməsi eyni zamanda kütləvi qətliamların da etirafı deməkdir. Bu cinayətlərin hamısı hüquqi məsuliyyət yaradır".

İsmayıl Qocayev

---

# Nə ilk təxribatdır, nə də sonuncu...

Rusiya sülhməramlılarına şikayət etməklə erməni quldurlarının hərəkətlərinin qarşısı alınmayacaq

**Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlıları yenidən təxribata əl atıblar. Fevralın 6-da Tərtər rayonunun Qapanlı kəndi erməni separatçıları tərəfindən atəşə məruz qalıb.**



> "Bir qədər sərtlik nümayiş etdirməliyik. Ən böyük xəbərdarlığı Rusiya sülhməramlılarına etmək lazımdır"

Müdafiə Nazirliyinin məlumatına görə, hadisə nəticəsində mülki əhali və bölmələrimizin şəxsi heyəti arasında xəsarət alan olmayıb. Sadəcə, Qapanlı yaşayış məntəqəsi ərazisindəki mülki tikiliyə ziyan dəyib. Təxribat törədən qanunsuz erməni silahlı dəstəsinin üzvlərinin spirtli içkinin təsiri altında atəş açmaları müşahidə edilib. Hadisə ilə bağlı dərhal Rusiya sülhməramlı kontingentinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə məlumat verilib. Ekspertlər vurğulayıblar ki, atəşin keçmiş Ağdərə - müharibədən sonra erməni terrorçularının qaldığı ərazidən açılması 10 noyabr razılaşmasının hələ də icra edilməyən 4-cü bəndini yenidən aktuallaşdırır.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov "Şərq"ə açıqlamasında deyib ki, Qapanlı kəndinə atəş açılması erməni separatçılarının ilk təxribatı olmadığı kimi sonuncu da olmayacaq.** Polkovnik bildirib ki, Rusiya sülhməramlılarına şikayət etməklə erməni quldurlarının özbaşına hərəkətlərinin qarşısı alınmayacaq: "Özümüzü aldatmayaq. Məsələnin kökləri başqa yerə gedir. Yanvarın 31-də Qarabağdakı qondarma rejimin "başçısı" A.Arutyunyan "sənəd" imzalayıb. Separatçılar həmin "sənəd"dən ruhlanıblar. Guya, 2025-ci ildə "prezident seçkiləri" keçiriləcək, "əldən verilmiş" ərazilər geri alınacaq və s. Yəni özləri üçün "dövlət" xəyalı qururlar. Ötən gün Ermənistanın sabiq prezidenti Serj Sarkisyan da sərsəmlədi ki, "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın tərkibində olmayacaq". Separatçılar baş verənləri özləri üçün "bayram" sayırlar, hətta içki məclisi düzəldirlər. Üstəlik, Azərbaycan tərəfinə atəş açırlar. Əlbəttə, erməni separatçılarının "seçki" və "dövlət" arzusu xam xəyallardır. Reallaşması heç vaxt mümkün olmayan məsələlərdir. 28 ildə heç nəyə nail olmadılarsa, Qarabağda qalmış 3-5 qotur erməninin nəyisə dəyişəcəyi elə sadəcə özlərinin inana biləcəyi utopiyadır".

**Ü.Cəfərov xatırladıb ki, Tərtər müharibə zamanı və sonrakı dövrdə ermənilərin ən yaralı yeri idi:** "44 günlük savaşda Tərtər ermənilər tərəfindən ağır silahlardan, artilleriyadan günlərlə atəşə məruz qaldı. Amma heç kim yerini-yurdunu tərk etmədi, insanlarda panika, qorxu yaranmadı. Qapanlıya atəş açmaqla orada səs-küy yaradacağına ümid edənlərin də arzuları puç çıxdı. Ermənilərin indiki addımı "milçəyin ürək bulandırması"dır. Lakin Azərbaycan tərəfi belə təxribatlara sərt cavab verməlidir. Rəsmi Bakı torpaqlarımızda yaşanan hadisələrə görə rus sülhməramlılarına məlumat verməməlidir. Sülhməramlılar özləri üzrxahlıq etməlidirlər ki, nəzarət etdikləri ərazilərdə erməni təxribatı baş verir. Onlar isə qarşısını ala bilmirlər, ya da almaq istəmirlər. Missiyalarını elə bərbad vəziyyətdə həyata keçirirlər ki, nəzarətsiz qalan erməni quldurları silahdan atəş açırlar. Müdafiə Nazirliyi lazımi addımları atır, amma bir qədər sərtlik nümayiş etdirməliyik. Ən böyük xəbərdarlığı Rusiya sülhməramlılarına etmək lazımdır. Rusiya Müdafiə Nazirliyi öz saytında hələ Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətsizlik nümayiş etdirir. Xankəndini "Stepanakert", Qarabağı "Dağlıq Qarabağ", Xocavəndi "Martuni" şəklində yazırlar. Nə qədər ki, 10 noyabr Bəyannaməsinin 4-cü bəndi (erməni silahlılarının qeyd-şərtsiz Qarabağdan çıxarılması - red) yerinə yetirilməyib, erməni təxribatları ilə çox rastlaşacağıq. Rusiyadan konkret soruşmaq lazımdır ki, onların üçtərəfli sazişin müddəasını icra etmək niyyətləri var, yoxsa yox. Üç aydır bununla bağlı kiçik təşəbbüs belə olmayıb".

İsmayıl Qocayev

---

# Şagirdlər dərsləri boykot edir

## 3 gündür problem həllini tapmayıb

**Sumqayıt şəhərindəki "Təfəkkür" liseyinin şagirdləri dərsləri boykot edib. Bu barədə "Sumqayıt 50" internet səhifəsində məlumat və video yerləşdirilib. Məlumatda bildirilir ki, liseyin 3 "c" sinif şagirdləri sentyabrın 1-dən etibarən onlara dərs deyən müəllimənin dəyişdirilməsinə etiraz əlaməti olaraq boykot üsulunu seçiblər.**




> "İbtidai siniflərdə müəllimənin tez-tez dəyişməsi, adətən şagirdlərin ürəyincə olmur"

Şagirdlər 3 gündür dərslərdə iştirak etmir. Valideynlər də şagirdləri haqlı sayır və hazırkı müəllimənin geri qaytarılmasını istəyirlər. Müəllimənin dəyişdirilməsinin səbəbi isə həmin şagirdlərə ibtidai təhsilin ilk pilləsində dərs demiş müəllimə Səbinə Şahbazovanın analıq məzuniyyətindən geri qayıtmasıdır. Məsələni yerində araşdırmağa çalışan "Baku TV" müxbirinin sualına cavabında liseyin direktoru Qönçə Səftərova bildirir ki, ötən illər ərzində Səbinə Şahbazova fasilələrlə 2 dəfə analıq məzuniyyətinə çıxıb. Bu müddətdə şagirdlərə başqa müəllimlər dərs deyib. 2021-22-ci tədris ilinin əvvəlindən isə 3 "c" sinfinə müddətli müqavilə ilə işə qəbul edilmiş Nəzakət müəllimə dərs deyir. Fevral ayının 1-dən isə S.Şahbazovanın analıq məzuniyyəti başa çatıb və o, işə gəlib. Şagirdlər və valideynlər S.Şahbazovanın məhz "tez-tez" dərsə gəlməməsindən narazıdırlar. Şagirdlər Nəzakət müəllimə artıq alışdıqları üçün tədrisi onun davam etdirməsini istəyirlər. Lakin S.Şahbazovanın işinə geri qayıtmaq hüququ var. Liseyin direktoru yaranmış vəziyyətlə bağlı Sumqayıt şəhər Təhsil Şöbəsinə müraciət edildiyini və Təhsil Nazirliyinə də bu barədə məlumat verildiyini qeyd edib.

**Problem necə həllini tapmalıdır? Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd etdi ki, şagirdlər təhsilalma hüquqlarını müdafiə edirlər:**

- Hər bir şagirdin təhsilalma hüququ var və konkret bu situasiyada şagirdlər özlərinin təhsilalma hüququnu müdafiə edir. "Şagirdlərin tələbi yerinə yetirilməlidirmi" sual olunursa, birinci növbədə məsələ Pedaqoji Şura tərəfindən araşdırılmalıdır. Müəllimənin hansı davranışları şagirdlərin ürəyincə deyil. Hansı davranış qaydalarını pozub. Müəllimə şagirdlərlə normal ünsiyyət yarada bilərmi. Şagirdlərlə ünsiyyətdə düzgün ifadələr seçirmi. Tədrisin keyfiyyəti şagirdləri, valideynləri qane edirmi. Araşdırılası çox məsələ var. Amma 3-cü gündür ki, problem həllinitapmayıb. Bu da Pedaqoji Şuranın, Təhsil Şöbəsinin və Təhsil Nazirliyinin ləng hərəkət etməsini göstərir. İkincisi, əgər dərsdən imtina edənlərin sayı şagirdlərin ümumi sayının 50 faizini təşkil edirsə, tələb yerinə yetirilməlidir. Çünki sayın 50 faizi çoxluq deməkdir. İbtidai siniflərdə müəllimənin tez-tez dəyişməsi, adətən şagirdlərin ürəyincə olmur. Çünki ibtidai sinif şagirdləri azyaşlıdırlar və müəlliməyə alışırlar. Müəllim dəyişləndə, digər müəlliməyə alışmaq müəyyən zaman aparır. Lakin işinə geri dönən müəllimənin də hüquqları var və o, analıq məzuniyyətindən qayıdıb. Qanunla o, işinə bərpa edilməlidir. Burada müxtəlif yanaşma üsulları ola bilər. Analıq məzuniyyətindən qayıdan müəllimləni başqa sinfə keçirmək mümkündürsə, bunu etsinlər. Müddətli müqavilə ilə işə götürülən müəllimənin müqavilə müddətinin bitib-bitməməsi də araşdırılmalıdır. Bu problem şagird də valideynlərin iştirakı ilə Pedaqoji Şurada həllini tapmalıdır.

Məlahət Rzayeva

# Ağdam istiqamətində qazılan səngər ermənilərə məzar yeri olacaq

## Rus sülhməramlılar Bakıya hərbi variantdan başqa çıxış yolu qoymur



“Azərbaycan təxribat cücərtilərini müşahidə etdiyi anda atəşlə separatçını məhv etməlidir. Bunu əsaslandırmaq üçün əlimizdə kifayət qədər arqument var”

**10 noyabr bəyanatının 4-cü bəndinin öhdəliklərindən irəli gələn prosesin icrasında faktiki olaraq durğunluq nümayiş etdirilir. 4-cü bəndə əsasən, Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilməli idi. Amma keçən müddət ərzində biz erməni separatçıların çıxarılmasını yox, prosesin tam əksini müşahidə etmişik.**

Burada bir neçə versiya önə çıxır. Separatçı tör-töküntülər Ermənistan rəhbərliyinin iradəsindən kənara çıxır və İrəvana tabe olmaqdan boyun qaçırır. Amma belə vəziyyətin yaranması Ermənistanı da qane edir. Digər məqam odur ki, onların qol-budaq atmasına şərait yaradan Rusiya sülhməramlılarıdır. Səbəb nə olur-olsun, Azərbaycanın səbrinin hüdudu var və bu sərhədin aşılması Bakını hərbi güc tətbiq etməyə məcbur edəcək.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə açıqlamasında vurğulayıb ki, Azərbaycan post-konflikt dövrü olsa da, 44 günlük Vətən müharibəsinin nəticələrini təhlil edərək yeni hərbi-strateji xətt yürüdür və ehtiyat tədbir kimi antiterror əməliyyatlarını gündəlikdə saxlayır.** Analitik qeyd edib ki, fevralın 4-də separatçılar Rusiya sülhməramlılarının çətiri altında gizlənərək Ağdam istiqamətində səngər qazıblar: "Bu səngər onların məzar yeri olacaq. Fevralın 6-da Tərtər rayonunun Qapanlı kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri fasilələrlə atıcı silahlardan atəşə tutulub. Azərbaycan Türkiyə modelli nizami ordu sisteminə keçid edib və proses davam edir. Artıq komando birlikləri yaranıb. Rəsmi informasiyalardan çıxarış etsək, belə hərbi birliklərin sayı 3-dür.

Antiterror əməliyyatları üçün digər qoşun növlərinin koordinasiyalı işini bir kənara qoyaq. Təkcə komando birlikləri ermənilərin başını əzməyə qadirdir. Bura işğaldan azad edilmiş ərazilərdə açılan digər hərbi hissələrin resursunu da əlavə etsək, o zaman ermənilərin taleyi üçün növbəti qara günün başlanması tezləşmiş olar. Bu, nə pafos, nə də şişirtmədir. Hərbi cəhətdən müqayisədir. Bu müqayisə deməyə əsas verir ki, Azərbaycan Ordusu kiçik resurslarla belə erməni quldurlarını məhv edə bilər. Rusiya sülhməramlılarının səngər qazmaq əməliyyatlarında iştirakı sual doğurur. Bakı vaxtaşırı bu cür məsələlərlə bağlı sülhməramlılara etiraz edib izahat tələb edir. Amma buna məhəl qoyulmaması yəqin ki, hansısa bəhanə ideyalarına əsaslanır. Bakı belə bəhanələrə toxdur. Bu gedişat Bakıya hərb variantından başqa çıxış yolu qoymur. Yaxşı olar ki, separatçı ünsürlər ağıllarını başlarına yığıb Ermənistana sağ-salamat geri qayıtması üçün çalışsınlar. Əks təqdirdə meyitləri evlərinə yola salınacaq".

**A.Kərimova görə, Rusiya tərəfindən Azərbaycana verilən cavab belə ola bilər ki, erməni separatçıların çıxarılması ilə bağlı onların öhdəliyi yoxdur. Bu barədə informasiya da yayılmışdı:** "Bu cavab bəs edir ki, Azərbaycan antiterror əməliyyatları ilə sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərdə hərb yolu ilə öz tamhüquqlu suverenliyini təmin etsin. Rusiya sülhyaratma elementi kimi missiyasını yerə yetirməlidir. Moskva mübahisə yarada biləcək addımlardan qaçmalıdır. Bacarmırsa, bunu elan etməli və ərazilərdən çıxmalıdır. Amma Rusiya həmin ərazilərdə qalıcı olmaq istəyir. Çünki öz təsir rıçaqlarını saxlamaq niyyətlərini güdür. Situativ davranışlara gəlincə, Azərbaycan təxribat cücərtilərini müşahidə etdiyi anda atəşlə separatçını məhv etməlidir. Bunu əsaslandırmaq üçün əlimizdə kifayət qədər arqument var. Əgər nəticə olmazsa, genişmiqyaslı antiterror əməliyyatlarına başlamalıyıq".

**İsmayıl**



# Buzlar əriyir…

## Türkiyə-İsrail münasibətlərində yeni dönəm başlayır

**Fevralın 6-da İsrail Prezidenti İsaak Hersoqla Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı baş tutub. İsrail prezidenti Ərdoğana COVID-19-dan tezliklə sağalmasını arzulayıb.**

Dövlət başçıları eyni zamanda erkən görüşün mümkünlüyünü müzakirə ediblər. Xatırladırıq ki, İsrail prezidenti Türkiyəyə gedəcək. Səfər martın ortalarında baş tutacaq. Eyni zamanda Türkiyə nümayəndə heyətinin də İsrailə səfəri planlaşdırılıb.

**Dövlət başçılarının görüşünün münasibətlərə necə təsir edəcəyini ”Şərq”ə şərh edən siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Türkiyə-İsrail münasibətləri normallaşma istiqamətində irəliləyir:**

”Türkiyə-İsrail münasibətlərinin pozulmasının təməli İsveçrənin Davos şəhərində keçirilən konfransda qoyulub. Həmin konfransda Ərdoğan İsraili fələstinlilərə qarşı ədalətli olmamaqda qınamışdı. Bundan sonra siyasi münasibətlər gərginləşsə də, iqtisadi münasibətlər qaydasında oldu. Siyasi əlaqələrin normallaşmasına Fələstin məsələsi maneçilik törədir. Hər iki ölkə məsələyə münasibətdə eyni mövqedə qalacaq. Lakin həm İsrail, həm Türkiyə münasibətlərin yeni mərhələyə keçidində maraqlıdır. Bu məsələdə Azərbaycanın rolu da vurğulanmalıdır. Ölkəmiz İsrail-Türkiyə münasibətlərinin müsbətə doğru dəyişməsində körpü rolu oynayır. Artıq anlayırlar ki, üç ölkənin əməkdaşlığı mümkündür”.

Ekspert İsrailin xarici siyasətdə dəyişiklik etməsinin səbəbini də açıqlayıb:

”Geosiyasi hadisələr də İsrailin xarici siyasətində dəyişiklik etməsinə səbəb olub. ABŞ-da demokratların hakimiyyətə gəlişi ilə dəyişiklik müşahidə etdik. Demokratlar heç vaxt İranla bağlı İsrailin istədiyini verməyiblər. Bu da İsrailin region ölkələri ilə münasibətləri normallaşdırmağa marağını artırır. Qeyd edim ki, ABŞ və İran arasında nüvə danışıqlarında irəliləyiş olarsa, bu, Türkiyə-İsrail münasibətlərinin inkişafına daha da müsbət təsir göstərəcək”.

**A.Nərimanlı qeyd edib ki, görüşdə əsas diqqət diplomatik əlaqələrin normallaşmasına ayrılacaq:**

”Görüşdə ticarət dövriyyəsinin artırılması məsələsi gündəmə gələ bilər. Bundan əlavə, müəyyən layihələrə imzaların atılmağı mümkün görünür. Fələstinlilərlə bağlı maraqların nizamlanması üçün də müzakirələr aparılacaq”.

**Xanlar Əlibəy**

# Acarıstanda kütləvi məzarlıqda azərbaycanlının qalıqları aşkarlanıb

## Hüseyn Ələkbərov 1938-ci il martın 11-də güllələnib





**Məhərrəm Zülfüqarlı:** “Acarıstandakı prosesdə bizim mütəxəssislər də iştirak etsə, yaxşı olar”

**Gürcüstanın Acarıstan bölgəsinin Xelvaçauri rayonunda keçmiş hərbi baza ərazisində aparılan qazıntılar zamanı yeni kütləvi məzarlıq aşkarlanıb. Sayca altıncı məzarlıqda 1930-cu illərdə sovet dövrünün repressiyaları zamanı güllələnən 29 insanın qalıqları tapılıb.**

Repressiya qurbanlarının cins və yaşını müəyyən etmək üçün DNT analizləri aparılır. Ekspedisiya iştirakçısı Eter Maxaradze bildirib ki, güllələnənlərin hamısının əlləri arxadan bağlanıb və baş nahiyələrində güllə izləri var. Mütəxəssis qeyd edib ki, qalıqlar aşkarlandığı yerdə yenidən dəfn olunacaq və ərazidə muzey tikiləcək. Araşdırmalar zamanı indiyədək tapılan qalıqlardan birinin 1869-cu il təvəllüdlü Ələkbərov Hüseyn Ələkbər oğluna məxsus olduğu müəyyən edilib. Acarıstanın Daxili İşlər Nazirliyinin arxiv sənədinə əsasən, o, 1938-ci il martın 11-də güllələnib. Qeyd edək ki, qazıntı işləri 2016-cı ildən aparılır. Prosesdə Polşadan dəvət olunan alimlər də iştirak edirlər. Ehtimal olunur ki, keçmiş hərbi baza ərazisində hələ aşkarlanmamış çox sayda kütləvi məzarlıqlar qalmaqdadır. Arxiv sənədlərinə əsasən, 1937-1938-ci illərdə Acarıstanda müxtəlif cəza tədbirləri nəticəsində 11-i qadın olmaqla 1050 nəfər güllələnib.

**Faktla bağlı ”Şərq”ə danışan tarix üzrə elmlər doktoru, professor Məhərrəm Zülfüqarlı kütləvi məzarlıqların aktual məsələ olduğunu deyib. Alim bəyan edib ki, tarixin üstü açılmamış gizli sirləri çoxdur:** ”1930-cu illərdə repressiya bütün SSRİ ərazisində həyata keçirilirdi. Gürcüstanın Acarıstan bölgəsi qədim türk torpağıdır. Uzun zamanlar Türkiyənin ərazisi olub. Rus-türk müharibələri nəticəsində dəfələrlə əl dəyişdirib. Nəhayət, tarixi proseslər nəticəsində çar Rusiyasının əlinə keçib. SSRİ dövründə isə Gürcüstanın ərazisi sayılıb. Acarıstanda müsəlmanların, türklərin, o cümlədən bölgədə yaşayan azərbaycanlıların sayını azaltmaq siyasəti həyata keçirilirdi. Repressiya milliyyətə çox önəm verməsə də, realıq odur ki, repressiyaya ən çox məruz qalan türk-müsəlman əhalisi idi. Acarıstanda kütləvi məzarlığın aşkarlanması bölgə türklərinə qarşı aparılan siyasətin göstəricisidir. Stalin türk dünyasına düşmən kəsilmişdi. SSRİ-nin bütün bölgələrində türklərin repressiya olunması yuxarıdan həyata keçirilən siyasət idi. Həmin dövrə aid kütləvi məzarlıqlar çoxdur. Repressiya illərində qətllərin çoxu kütləvi həyata keçirildiyi üçün məzarlar da kütləvi olurdu. Bu, sovet-totalitar rejiminin insanlığa qarşı cinayətinin daha bir sübutudur”.

***Tarixçi bildirib ki, vaxtı ilə repressiyaya məruz qalmış şəxslərin indiki varislərinin fərdi şəkildə bu işin arxasınca düşməsi müəyyən səbəblərdən mümkün olmaya bilər:*** ”Amma dövlət səviyyəsində atılacaq addımlar sayəsində Gürcüstandakı kütləvi məzarlıqda tapılmış cəsəd qalıqlarının neçəsinin azərbaycanlılara məxsus olması, ailə üzvlərinin müəyyənləşməsi mümkündür. Acarıstandakı prosesdə bizim mütəxəssislər də iştirak etsə, yaxşı olar”.

**İsmayıl Qocayev**



# Bakı üzərinə düşən öhdəliyi həmişə yerinə yetirib

## Tural Gəncəliyev: “İndi biz Ermənistandan da eyni münasibəti gözləyirik”

**Fevralın 4-də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan və Fransa liderləri, Ermənistan baş naziri ilə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında videoformatda görüş keçirilib. Görüşdə E.Makron Fransanın Avropa İttifaqına sədrliyi qismində çıxış edib. Toplantı zamanı əvvəlcə Şarl Mişelin təşəbbüsü ilə 2021-ci il dekabrın 14-də Brüsseldə Azərbaycan və Ermənistan tərəfin iştirakı ilə keçirilmiş görüşün əhəmiyyəti vurğulanıb.**

Sonra Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələr edilib. Bu xüsusda iki ölkə arasında münasibətlərin müxtəlif aspektləri, o cümlədən humanitar məsələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparılıb.

**Görüşü ”Şərq”ə şərh edən millət vəkili Tural Gəncəliyev bildirib ki, Azərbaycan tərəfinin belə bir toplantıda iştirakı rəsmi Bakının daim konstruktiv danışıqlara hazır olduğunu göstərir:**

”Rəsmi Bakı öz üzərinə düşən öhdəlikləri yerinə yetirir, postmünaqişə prosesində və ədalətli sülhə aparan yolda öz sağlam mövqeyini daim ortaya qoyur. Ermənistan tərəfindən də eyni münasibəti gözləyir. Azərbaycan istər 44 günlük İkinci Qarabağ savaşı, istərsə də ondan sonrakı dövrdə münaqişənin həllində istənilən tərəfin vasitəçilik missiyasını, təkliflərini hər zaman nəzərdən keçirib”.

Deputat baş tutmuş görüşdə rəsmi İrəvanın üzərinə götürdüyü öhdəliyə diqqət çəkib:

”Ermənistan üzərinə birinci Qarabağ müharibəsində qətlə yetirilmiş, hələ də barələrində hər hansısa bir məlumat olmayan Azərbaycan vətəndaşları və onların kütləvi məzarlıq yerləri haqqında məlumat verməkdə öhdəliyi götürüb.

Rəsmi Bakı isə görüşdən bir neçə gün sonra konstruktiv mövqe göstərərək artıq səkkiz erməni hərbçisini geri qaytarıb”.

T.Gəncəliyev hesab edir ki, belə məqamlarda daha çox ölkə başçımızın iradəsi vurğulanmalıdır:

”Çünki Azərbaycan tərəfinin konstruktiv mövqeyi olmasa, bu görüşlərin də xüsusi bir əhəmiyyəti olmaz”.

**Günəş Mərd**

# Milli Məclis Azərbaycanla Türkiyə arasında daha bir sənədi təsdiq edəcək



**Azərbaycanla Türkiyə arasında daha bir sənəd Milli Məclisin plenar iclasına tövsiyə edilib.**

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin dünən keçirilən iclasında ”Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə məsələ müzakirəyə çıxarılıb.

İclasda sənədin iki qardaş ölkə arasında əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyi qeyd olunub.

Sənəd Tərəflər arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, idxal və ixrac olunan qida məhsullarının təhlükəsizliyinin təmin olunması və qida sektorunda Tərəflərin ticarət əlaqələrinin mövcud potensialının artırılması məqsədilə hazırlanıb.

Müzakirələrdən sonra sənədin Milli Məclisin plenar iclsına tövsiyə edilməsi barədə qərar qəbul olunub.

# Azərbaycanın Qərblə əməkdaşlığı Rusiyanın ürəyincə deyil

## ”Kreml xarici siyasətdə atdığımız addımları ”bəyənməyəndə” Qarabağda atəş səsləri yüksəlir”

**”Avropa İttifaqı ilə Azərbaycan arasında qaz tədarükünün artırılması istiqamətində danışıqlar, ”Çərçivə sazişinin” imzalanması haqqında mesaj separatçıların silahlı təxribatına rəvac verdi”.**

*Bunu ”Şərq”ə Milli Cəbhə Partiyası sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə deyib.* Partiya rəsmisi bildirib ki, Qapanlı kəndinin atəşə tutulması və daha öncə Suqovuşan-Kəlbəcər yolunda mülki maşınların separatçılar tərəfindən ”yoxlanılması” Azərbaycanın apardığı siyasətə qarşı demarşdır: ”Rusiya tərəfi Azərbaycanın Qərblə əməkdaşlığını inkişaf etdirməsinə Qarabağda separatçı silahlı erməni birləşmələrinin əli ilə təzyiq göstərir. Silahlı erməni birləşmələrinin Rusiya tərəfindən qorunmasının əsas səbəbi budur. Məqsəd Azərbaycana təzyiq edərək regionda təsir gücünü saxlamaqdır”.

**Politoloq vurğulayıb ki, 10 noyabr bəyannaməsinin 4-cü bəndinin yerinə yetirilməməsi və silahlı erməni birləşmələrinin fəaliyyətini artırması rəsmi Bakını hərəkətə gətirməlidir:** ”Kreml xarici siyasətdə atdığımız addımları ”bəyənməyəndə” Qarabağda atəş səsləri yüksəlir. Buna birdəfəlik son verməyin zamanıdır. Silahlı erməni birləşmələrinin ləğvi gündəmə gətirilməlidir. Rusiya sülhməramlı qüvvələri erməni silahlılarına hərbi-logistik dəstək verir. Silahlılar üçün kazarma və mühəndis istehkam işləri aparılır. Buna biganə yanaşmaq olmaz”.



**İsmayıl**

# Azərbaycan və Ukrayna eyni platformada yer alacaq

## İki ölkə arasında siyasi, strateji, hərbi iqtisadi əlaqələr möhkəmlənir



**Azərbaycan Xarici İşlər Nazirliyi Ukrayna ilə diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibəti ilə "Twitter"də paylaşım edib. Paylaşımda bildirilib ki, Azərbaycan və Ukrayna arasında diplomatik əlaqələrin qurulmasının 30 ili tamam olur. "Bu münasibətlə dost Ukrayna hökumətinə və xalqına ən xoş arzularımızı çatdırırıq.**

Strateji tərəfdaşlığımızın daha da möhkəmlənməsini səbirsizliklə gözləyirik!" - paylaşımda qeyd edilib.

**İki dövlət arasındakı münasibəti "Şərq"ə şərh edən siyasi şərhçi Samir Hümbətov bildirib ki, Azərbaycan və Ukrayna münasibətləri hər zaman mövcud olub:**

"Ümumiyyətlə, Azərbaycanla Ukrayna arasında əlaqələr təkcə müstəqillik dövründə deyil, ondan əvvəlki dövrdə, Sovet Sosialist İttifaqı dövründə də mövcud idi. Bundan sonrakı mərhələdə bu əlaqələr özünü qoruyub. Demək olar ki, tərəflər arasında daim siyasi, iqtisadi, hərbi, mədəni və digər sahələrdə əməkdaşlıq mövcud olub. Amma son 8 illik dövrdə, Rusiyanın Krımı ilhaqından sonrakı mərhələdə artıq yeni bir dövr başladı. Çünki həmin dövrə qədər Ukrayna tam şəkildə Azərbaycanın dərdini anlaya bilmirdi. Amma işğal prosesi onların da başına gəldiyi üçün anlamağa başladılar. Beləliklə, o dövrdən başlayaraq artıq Azərbaycanla Ukrayna arasında yeni bir dövrün əsası qoyuldu. Ukrayna hər bir platformada Azərbaycanı dəstəkləməyə, işğal olunmuş ərazilərimizlə bağlı öz qəti mövqeyini bildirməyə başladı".

**Siyasi şərhçi iki ölkə arasında iqtisadi əlaqələrin gücləndiyini vurğulayıb:**

"Azərbaycan nefti və qazı tədricən Ukrayna bazarına çıxmaq mərhələsinə keçid edib. Azərbaycan Ukraynadan silah tədarükü həyata keçirir. Eyni zamanda, bu gün Ukraynadan Azərbaycana taxıl idxalı məsələsi də gündəmdədir. Göründüyü kimi, siyasi, strateji, hərbi cəhətlərlə yanaşı, iqtisadi cəhətdən də faydalı qarşılıqlı əməkdaşlıq var".

**S.Hümbətov əməkdaşlığın gedişatından və gələcəkdə baş verəcək inkişafdan söz açıb:**

"Bundan sonrakı mərhələdə bu əməkdaşlığı daha da inkişaf etdirmək olar. Bu da müəyyən bir platformada mümkündür. Məsələn, GUAM kimi təşkilatlarda Azərbaycanla Ukrayna bir platformada çıxış edir. Hesab edirəm ki, bu platformanın imkanlarından istifadə edərək əlaqələri möhkəmləndirmək olar.

Bu, tərəflər arasındakı siyasi, iqtisadi əlaqələrə və təhlükəsizliklə bağlı məsələlərə ciddi təsir göstərəcək. İkinci Qarabağ savaşında Ukraynanın birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi bizim bu məsələdə uğur qazandığımızın göstəricisidir.

Ukrayna ilə artıq səmərəli əməkdaşlığımız mövcuddur. Düşünürəm ki, Azərbaycanın Krımı Rusiyanın ərazisi kimi tanımaması Azərbaycanın Ukraynanın ərazi bütövlüyünə hörmət etməsinin işarəsidir.

Zənnimcə, bu cür addımlar tərəflər arasında əlaqələri daha da sıxlaşdıracaq. Hətta gələcəkdə BMT çərçivəsində istənilən prinsipial mövzularda bir-birimizin daha sıx və birmənalı şəkildə dəstəklənməsinə kömək edəcək".

**Çimnaz Şahlar**

# "Bir manatlıq" taksilərə əlvida?

## Qiymətlər tənzimləndikdən sonra bəzi şirkətlər bazarda qala bilməyəcək



**Bakıda ilk özəl taksi şirkəti 1995-ci ildə yaradılıb. İllər keçdikcə taksi şirkətlərinin sayı sürətlə artır. Artıq bazarda bir-biri ilə rəqabət aparan xeyli sayda yerli və xarici taksi xidmətləri fəaliyyət göstərir.**

Heç bir xidmətə qoşulmayan və fərdi şəkildə sərnişindaşıma ilə məşğul olan sürücülərin sayı isə daha çoxdur. Vahid qiymətin olmaması, "bir manatlıq" taksilərin xidməti, xüsusi şirkətlərin paralel şəkildə fəaliyyət göstərməsi təzə tənzimləmələrə zəmin yaradır. Prezident İlham Əliyev "Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" fərman imzalayıb. Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkili, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində həyata keçirilən fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı normativ hüquqi aktların layihələri hazırlanacaq.

Fərmana əsasən, Nazirlər Kabineti normativ hüquqi aktların layihələri üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

**Gözlənilən yeni normativ qaydalara dair fikirlərini "Şərq"lə bölüşən nəqliyyat eksperti İlqar Hüseynli bildirib ki, paytaxtda bir neçə qaydalarla fəaliyyət göstərən taksi şirkətləri mövcuddur:**

"Xeyli taksi şirkəti xidmətlərini çətir kimi göstərirlər. Şəxsi avtomobilə malik sürücülər həmin şirkətlərlə konktrakt bağlayıb işləyirlər. "Bolt", "Uber" "9933" kimi taksi xidmətlərini nümunə göstərə bilərik. Lakin bəzi şirkətlər öz nəqliyyatlarına sahibdirlər.

Məsələn, "Bakı taksi". Onlar sadəcə sürücüləri işə götürürlər. "Bir manatlıq" taksi, yaxud məhəllələrdə dayanaraq çalışanlar da var. Fərmanda əsas məsələlərdən biri taksi xidmətində qiymətlərin tənzimlənməsi istiqamətində ola bilər. Şirkətlər arasındakı rəqabət qiymətlərin azalmasına imkan vermişdi.

Xidmətə cəlb olunan sürücülər sırasında boş dayanmalar müşahidə edilmirdi. İndi necə formalaşacağı, hansı şirkətlərin bazarda qalacağı barədə öncədən fikir söyləmək çətindir. Elə şirkətlər ola bilər ki, taksometrlər quraşdırılandan sonra müəyyənləşdirilmiş tariflə razılaşacaq və ya razılaşmayacaq. Ehtimal, qiymətlərin bahalaşması mümkündür.

Vətəndaşlar artıq taksiyə deyil, alternativ ictimai nəqliyyata üstünlük verərlər. Konsepsiyanın nədən ibarət olduğunu gələcəkdə görəcəyik".

**Aygün Tahir**



# Minsk qrupunun ləğv olunması gündəmə gələcək

## Son görüşdə Makron Paşinyana dəstək verməyə həvəs göstərmədi

**Rusiyanın "Natsionalnaya oborona" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenko İlham Əliyevin, Emmanuel Makronun, Şarl Mişelin və Nikol Paşinyanın iştirakı ilə videoformatda görüşün yekununa dair bəyanatı şərh edib.**

O qeyd edib ki, Minsk qrupunun mandatı və özü artıq tükənib. Korotçenkonun fikrincə, artıq qrup Qarabağ bölgəsində yaşayan ermənilərin Azərbaycanın siyasi-hüquqi sahəsinə inteqrasiyasına yardım kimi məsələləri öz üzərinə götürməlidir. Ekspert qeyd edib ki, əsas şərt isə bütün qeyri-qanuni silahlı birləşmələrin Qarabağ bölgəsindən tezliklə çıxarılmasına köməklik etməkdir.

**Minsk qrupunun fəaliyyətini "Şərq"ə dəyərləndirən "Müstəqil Mətbuat Mərkəzi" İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli də artıq bu quruma ehtiyac qalmadığını bildirib:**

"ATƏT-in Minsk qrupunun missiyası artıq sona çatıb. 30 il ərzində öz missiyasını yerinə yetirməyib. Nəticədə onların missiyasını Azərbaycan Ordusu icra etmək məcburiyyətində qalıb. Bu isə o deməkdir ki, Minsk qrupunun fəaliyyəti üçün heç mövzu qalmayıb. Üstəlik, rəsmi Bakı həmin qurumun Qarabağ mövzusu ilə məşğul olmasını birmənalı şəkildə istəmir.

Son proseslər onu göstərir ki, Qərb siyasi dairələri rəsmi Bakının bu mövqeyi ilə artıq barışıb. Hər halda, Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Avropa Birliyinin nüfuzlu təmsilçisi Şarl Mişel və Ermənistan Baş naziri Nikol Paşinyan arasında keçirilən videogörüşdə Qarabağ və Minsk qrupu mövzuları gündəmə gətirilməyib. Düzdü, erməni baş nazir bu mövzuları müzakirəyə çıxartmağa cəhd göstərib, ancaq dünyada ən ermənipərəst dövlət olan Fransanın Prezidenti Emmanuel Makron belə həmin mövzudan yan keçib. O, Paşinyana dəstək verməyə həvəs göstərmədi. Eyni zamanda, görüşdən sonra yayılan bəyanatda ATƏT çərçivəsində əməkdaşlığa üstünlük verildiyi vurğulanır. Lakin Minsk qrupu barədə demək olar ki, elə bir ciddi xatırlatma yoxdur. Bütün bunlar onu göstərir ki, Azərbaycan Avropa Birliyi dövlətləri üçün olduqca önəmli strateji tərəfdaşa çevrilmək üzrədir.

> *"Azərbaycan Avropa Birliyi dövlətləri üçün olduqca önəmli strateji tərəfdaşa çevrilmək üzrədir"*

Avropa ölkələrinə hazırda Rusiya enerji resurslarına alternativ qaynaqlar lazımdır. Ölkəmiz Avropanın enerji təhlükəsizliyində xüsusi rol oynaya bilər. Hazırda Avropa İttifaqı Azərbaycandan təbii qaz idxalını artırmaqla, Rusiyadan olan asılılığı zəiflətməyə çalışır.

Belə situasiyada isə Avropanı təmsil edən heç bir siyasi lider Minsk qrupu və Qarabağ kimi mövzulardan danışıb, Azərbaycanı narazı salmağa həvəs göstərməz.

Ona görə də Avropa Birliyinin Cənubi Qafqazla bağlı siyasi gündəliyini hazırda rəsmi Bakı müəyyən edir. Bundan sonra Minsk qrupunun fəaliyyətinin bərpasına xüsusi cəhdlərin göstəriləcəyi o qədər də inandırıcı deyil. Böyük ehtimalla yaxın gələcəkdə bu qurumun ləğv olunması da gündəmə gələ bilər".

**Xanlar Əlibəy**

# Ermənistanda antirus əhval-ruhiyyəsi güclənir

## Bəzi detalların mətbuata sızdırılması Paşinyanın əleyhdarlarının işidir

**Ermənistan polisinin rəisi Vaqe Kazaryanın dəvəti ilə 2-4 fevral tarixlərində Ermənistana səfər edən Gürcüstanın Daxili İşlər naziri Vaxtanq Qomelauri, Baş nazir Nikol Paşinyanla da görüşüb. Gürcü mətbuatı xəbər verir ki, Ermənistan mətbuatı isə bu səfər çərçivəsində baş vermiş qalmaqalla çalxanıb.**



Belə ki, rəsmi görüşlərdən əlavə gürcü nazir həmkarı və Ermənistan baş naziri ilə qeyri-rəsmi nahar masasına əyləşib. Bu məclis sözün əsl mənasında Ermənistan hökuməti üçün böyük rüsvayçılığa çevrilib.

Erməni baş nazir nahar zamanı çox içdiyi üçün sərxoş vəziyyətə düşüb. Bundan sonra isə o, Rusiya Prezidenti Vladimir Putin, KTMT və ümumiyyətlə, Moskvanın həyata keçirdiyi siyasətlə bağlı sərt fikirlər səsləndirməyə başlayıb.

Sözügedən vəziyyətdən gürcü nazir şoka düşüb. O, Nikol Paşinyanın başqa bir dövlətin nümayəndəsinin yanında Rusiya prezidentinin ünvanına bu cür fikirləri necə səsləndirə bilməsindən heyrətə gəlib.

Gürcü nazir əsl dövlət xadimi kimi davranaraq bu cür vəziyyəti özünə yaraşdırmayıb və artıq Paşinyanın Putinlə bağlı təhqirlərini eşitmək istəmədiyini bildirib. O, erməni həmkarı Vaqe Kazaryandan ya Paşinyanın, ya da özünün məkanı tərk etməli olduğunu söyləyib. Nəticədə sərxoş vəziyyətdəki Nikol Paşinyan masanı tərk edib.

**Vəziyyətlə bağlı "Şərq"ə danışan analitik Turab Rzayev bunu siyasi gediş kimi qiymətləndirib:**

"N.Paşinyan fürsətdən istifadə edərək, Rusiya, KTMT haqqında olan düşüncələrini erməni cəmiyyətinə və dünya ictimaiyyətinə çatdırır. Əslində Paşinyan Qərbin məhsuludur. Avropa İttifaqının (Aİ) Qərbdəki liberal çevrələrinin köməyi ilə hakimiyyətə gəlib. Onun Qərbdəki liberal qüvvələrlə, xüsusilə Fransa Prezidenti Emmanuel Makronla çox yaxın münasibətləri, ailəvi dostluqları var. Bundan əvvəl də Paşinyan bir neçə dəfə Rusiya ordusunun Ermənistandan çıxarılmasını, rus bazarlarının ölkədən xaric edilməsi ilə bağlı fikirlər yürüdüb. Rəsmi İrəvanda Rusiyadan qaçma meyilləri var. Noyabr ayında Putin onu Soçi görüşünə dəvət edəndə Paşinyan Aİ-yə səfəri üstün tutmuşdu. Brüsseldən vasitəçilik xahiş etmişdi. Məcbur olduğuna görə bəzən rəsmi Moskvanın şərtləri ilə barışmağa razılıq verir".

**Siyasi şərhçinin sözlərinə görə, bu minvalla ölkədə antirus əhval-ruhiyyəsi hiss edilir:**

"Paşinyan müharibədə biabırçı formada məğlub olsa da, yenidən baş nazir seçilməsi erməni cəmiyyətinin Rusiyaya və onun himayə etdiyi şəxslərə, keçmiş "Qarabağ klanı"na nifrət bəslədiyini göstərir. Hazırda Paşinyanın əsas məqsədi sərxoşluqdan yararlanıb real fikirlərini xalqa çatdırmaqdır. Ən azından erməni xalqı Paşinyanın Rusiyanı bəyənmədiyini bilir.

Belə bir məsələnin mətbuata sızdırılması Paşinyanın əleyhdarlarının işidir. Onun etibarlı tərəfdaş olmadığını anlatmağa çalışırlar, qıcıqlandırırlar. Putin özünə qarşı hörmətsizlik edən şəxslərə qarşı kin saxlayır.

Həmçinin Paşinyanın ciddi dövlət adamı olmadığını, içib özünü itirdiyini və s. informasiya yaymaqla onu ictimaiyyətin gözündən salmağa cəhd göstərirlər".

**Aygün Tahir**

# Azərbaycan Avropa üçün yeni, alternativ mənbədir

## Ölkəmizdən qaz almaq istəyənlərin sayı çoxalır

**Avropa İttifaqının Qonşuluq və Genişlənmə üzrə Komissarı Oliver Varhelyi Azərbaycan kimi etibarlı tərəfdaşa ehtiyac duyduqlarını deyib. "Dünyada qaz probleminin mövcud" olduğunu söyləyən Aİ rəsmisinin sözlərinə görə, Avropa İttifaqı qaz məsələsində Azərbaycana etibar edir. Komissar diqqətə çatdırıb ki, Cənub Qaz Dəhlizi karbon emissiyasını 35 faiz azalda bilməyə imkan verir.**

Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz də bildirib ki, TANAP-la digər region ölkələrinin də qazı nəql edilə bilər. Onun sözlərinə görə, Trans-Anadolu boru kəməri vasitəsi ilə təkcə Azərbaycanın deyil, digər region ölkələrinin qazını da Avropaya nəql etmək imkanı var. O xatırladıb ki, Azərbaycan və Türkmənistan "Dostluq" yatağından qazın birgə hasilatına hazırlaşır. Nazir vurğulayıb ki, Türkiyə boru kəmərinin ötürmə gücünün artırılmasını dəstəkləyir və Avropa tərəfindən də belə bir tələb var. Məlumata görə, hazırda TANAP-ın tutumunun artırılması məsələsi müzakirə olunur. Ekspertlərə görə, boru kəməri layihələndirilərkən illik ötürmə qabiliyyətinin 31 mlrd. kubmetr olması nəzərdə tutulurdu. Bu artım gələcək tələb və təklifə uyğun olacaq. Xatırladaq ki, TANAP kəməri Cənubi Qaz Dəhlizinin mərkəzi elementidir. Bu kəmər vasitəsi ilə Azərbaycan qazının bir hissəsi Türkiyəyə, digər hissəsi isə Avropaya nəql edilmək üçün Türkiyə ilə Yunanıstanın sərhədində çatdırılır.

**Kəmərin əhəmiyyəti ilə bağlı "Şərq"ə açıqlama verən millət vəkili Vüqar Bayramov bildirib ki, Azərbaycan Avropa üçün yeni, alternativ mənbədir.**



**Deputat bəyan edib ki, ölkəmiz Avropa qitəsinin enerji təhlükəsizliyinə xüsusi töhfə verir:** "Azərbaycan Avropa bazarında hansısa ölkə, yaxud şirkətlə rəqabət aparmaq niyyətində deyil. Məqsədimiz Avropanın enerji təminatında rol almaqla yanaşı, həm də enerji məhsullarımızı dünya bazarına çıxarmaqdır. Nəzərə alaq ki, qaz nəql etdiyimiz ölkələr və gələcəkdə qazımızı almaq istəyənlər Avropa İttifaqı üçün vacib dövlətlərdir. Ölkəmizdən qaz almaq istəyənlərin sayı çoxalır. Bolqarıstan Azərbaycandan illik olaraq 2 milyard kubmetr həcmində qaz almağı nəzərdə tutur. Bu, Bolqarıstanın mavi qaza olan tələbinin təxminən 60 faizindən çoxunun Azərbaycan hesabına ödənməsi deməkdir. Eləcə də Yunanıstan, Rumıniya və Macarıstanda istehlakın əhəmiyyətli miqdarı Azərbaycanın mavi qazı hesabına formalaşacaq".

V.Bayramova görə, Orta Asiyanın, əlaltısus Türkmənistan qazının Avropaya çıxarılması da müzakirə olunur: "Azərbaycan Türkmənistanla imzaladığı anlaşmaya görə 2 milyard kubmetrə yaxın mavi qazı illik olaraq alacaq. Cənub Qaz Dəhlizinin ötürmə qabiliyyətinin 31,5 milyard kubmetrə qədər yüksələcəyini nəzərə alsaq, gələcəkdə Orta Asiyanın digər ölkələrinin Cənub Qaz Dəhlizinə qoşulacağını əminliklə söyləmək mümkündür".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi

# Dövlət əl qoydu

## Su ehtiyatlarından səmərəli istifadə ilə bağlı ciddi tədbirlər görüləcək

**Azərbaycan Respublikası Baş nazirinin müavini, Su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyanın sədri Şahin Mustafayevin rəhbərliyi ilə Komissiyanın 15-ci (onlayn) iclası keçirilib.**

Nazirlər Kabinetindən verilən məlumata görə, iclasda Azərbaycan Respublikası Prezidentinin 27.07.2020-ci il tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na əsasən su və su təsərrüfatı obyektlərindən nəzarətdənkənar istifadənin aradan qaldırılması, uçotun təkmilləşdirilməsi və nəzarətin təmin edilməsi istiqamətində verilmiş tapşırıqların icrası ilə bağlı görülmüş tədbirlər barədə Komissiyada təmsil olunan müvafiq dövlət qurumlarının, habelə aidiyyəti yerli icra hakimiyyəti orqanlarının məruzələri dinlənilib və müzakirələr aparılıb. Müzakirələrin nəticəsinə əsasən Mingəçevir su anbarından başlayaraq Kür çayının mənsəbinə qədər Kür çayı hövzəsi üzrə su ehtiyatlarından səmərəli və qənaətli istifadəni və məsələnin həllinə kompleks yanaşmanı təmin etmək məqsədilə inteqrasiyalı idarəetmə mexanizminin tətbiqinə dair Komissiyada təmsil olunan müvafiq dövlət qurumlarına və aidiyyəti yerli icra hakimiyyəti orqanlarına zəruri tapşırıqlar verilib.

**"Altay" Sosial Araşdırmalar Mərkəzinin sədri Elçin Bayramlı "Şərq"ə açıqlamasında bildirdi ki, Kür çayı hövzəsi üzrə su ehtiyatlarından səmərəli istifadə ilə bağlı aidiyyətli qurumlar qarşısında ciddi tələblər qoyulması müsbət haldır:**

- Müvafiq qurumlar qarşısında tələblər qoyulması təqdirəlayiq addımdır. Təbii ki, nəzərdə tutulan işlər düzgün həyata keçirilsə, bu, ölkəmizin su ehtiyatlarından səmərəli istifadəyə nail olunmasına yardım edəcək. Kür çayı ilə bağlı illərdir həyəcan təbili çalınır. Kür çayının həm suyu azalır, həm də ekoloji çirklənmə yüksək səviyyədədir. Kür çayının suyu əsasən suvarma üçün istifadə olunur, lakin bu da çatmır, yayda Kürqırağı rayonlarda su qıtlığı yaşanır. Əgər indi bu sudan istifadəni daha da məhdudlaşdırsalar, onda başqa bir problem ortaya çıxacaq - əkinlər susuz qalacaq. Ona görə də bu iş paralel aparılmalıdır. Yəni mümkün olan yerlərdə çoxsaylı artezianlar qazılıb yeraltı su mənbələrindən istifadə artırılmalıdır ki, Kürün suyuna təzyiq azalsın. Əlavə su anbarları yaradıla bilər ki, suyun bol vaxtı ehtiyat toplayıb qıt vaxtı istifadə edilsin. Ümumiyyətlə, su ehtiyatlarından səmərəli istifadə üçün kompleks tədbirlər həyata keçirilməlidir. Ən əsası bizdə çox yüksək olan su itkisinin qarşısı alınmalıdır. Bəzi hallarda su itkisi 30-40 faizə çatır ki, bu da dünya rekordudur. Su itkisi deyildikdə burada 2 məsələ var - biri odur ki, su təsərrüfatının düzgün idarə olunmaması nəticəsində həqiqi su itkisi yaranır, digəri odur ki, məmurlar bu suyu özlərinin və digər vəzifəli, imkanlı şəxslərin təsərrüfatlarına verib su itkisi kimi qeydə alırlar. Əgər bu məsələlər aradan qaldırılmasa, bu sahədəki problemləri həll etmək mümkün olmayacaq.



**Dünyada su ehtiyatlarının getdikcə azalması kimi təhlükəli vəziyyətin yarandığını vurğulayan E.Bayramlı qeyd etdi ki, Azərbaycan bu təhlükəni göz önünə alaraq zəngin su ehtiyatlarından səmərəli istifadəni təşkil etməlidiir:**

- Azərbaycan 44 günlük Vətən müharibəsində şanlı qələbə əldə etməklə 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında qalan zəngin su ehtiyatlarını da işğaldan azad etdi. Ölkəmizin su ehtiyatlarının böyük bir hissəsi məhz işğal edilmiş ərazilərdə idi, indi isə artıq biz bu ehtiyatlara sahibik. Amma bu da acı həqiqətdir ki, düşmən uzun illər ərzində su ehtiyatlarımızı çirkləndirib. Məsələn, Oxçuçayın suyu o qədər zəhərlənib ki, burada heç bir canlı yaşamır artıq. Onun suyundan suvarmada istifadə edilən Zəngilan rayonu ərazisində torpaq da zəhərlənib və bu su ilə yetişdirilən məhsul əhalinin sağlamlığı üçün təhlükə törədəcək. Qısası, Ermənistan bu çayı ağır çirklənməyə məruz qoymaqla təkcə bir rayon üçün deyil, böyük bir region üçün ekoloji fəlakət yaradıb. Oxçuçay vasitəsilə Arazın çirkləndirilməsi İrana da ciddi ekoloji zərər vurur. Ona görə də Azərbaycan haqlı olaraq məsələni BMT səviyyəsinə çıxardı. Ermənistan bu ekoloji terrora görə kompensasiya ödəməli, Azərbaycana keçən çayların çirkləndirilməsini dayandırmalıdır. Oxçuçay Xudafərin su anbarına tökülməlidir. Əgər çayın Ermənistan tərəfdən çirkləndirilməsi dayandırılmazsa zəhərli su Xudafərin su anbarına töküləcək. O zaman anbarın suyu ətraf ərazilərdə suvarma üçün istifadəyə yararsız olacaq. Nəticədə yenə su qıtlığı yaranacaq. Bu artıq təhlükənin böyüməsi deməkdir. Zəngilanda məskunlaşma və təsərrüfat işləri başlamamış bu problemin qarşısı alınmalıdır. Çirklənən ərazilər təmizlənməlidir. Bu isə çox böyük vəsait, xərc və enerji tələb edir. Dövlətimizin bunun üçün müvafiq maliyyə və texniki imkanları var, lakin Ermənistan hər bir halda təzminat ödəməli və suyun çirkləndirilməsinin dayandırılacağına dair öhdəlik götürməlidir.

***"Mümkün olan yerlərdə çoxsaylı artezianlar qazılıb yeraltı su mənbələrindən istifadə artırılmalıdır ki, Kürün suyuna təzyiq azalsın"***

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# CHP-li deputatın açıqlaması karyerasını bitirəcək

## "Aykut Ərdoğdunun açıqlaması "beşinci kolon"a xas davranış tərzidir"




**"Azərbaycanda olduğu kimi qardaş Türkiyənin də siyasi elitasında, partiya və ictimai birliklərində "beşinci kolon"çuların mövcud olması təbiidir".**

**Bu barədə "Şərq"ə açıqlamasında Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib.**

Partiya rəhbəri bildirib ki, Cümhuriyyət Xalq Partiyasını (CHP) təmsil edən millət vəkili Aykut Ərdoğdunun Azərbaycan və Türkiyə münasibətlərinə kölgə salmağa hesablanmış açıqlaması məhz "beşinci kolon"a xas davranış tərzidir: "Bakı ilə Ankara arasındakı əlaqələr keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Hər iki ölkənin parlamentində Şuşa Bəyannaməsi təsdiqlənib. Belə məqamda Ərdoğdunun açıqlamasını təsadüfi hesab etmək olmaz. Belə açıqlamalar heç vaxt təsadüfən verilmir. Böyük ehtimalla Ərdoğdu Türkiyə-Azərbaycan birliyini gözü götürməyən hansısa dairələrin sifarişini yerinə yetirir. Bu sifarişin uzantıları hətta xaricdəki anti-Türkiyə mərkəzlərinə qədər gedib çıxa bilər. Hər halda belə çıxışlar Azərbaycan və Türkiyə arasında əlaqələrin pozulmasına hesablanmış addımlar kimi gözdən keçirilməlidir. İndi bir daha aydın olur ki, 44 günlük İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan və Türkiyənin müttəfiqlik münasibətlərinin daha da güclənməsi və Şuşa Bəyannaməsi həqiqətən də bir çoxlarını çox ciddi şəkildə narahat edir. Həmin dairələr Aykut Ərdoğdu kimi uğursuz siyasətçilərdən "alət" kimi istifadə edirlər. Normal siyasətçi nə özünü, nədəki mənsub olduğu partiyanı heç vaxt bu cür zərbə altında qoymazdı".

**Ə.Hüseynov qeyd edib ki, Aykut Ərdoğdu başa düşməliydi ki, onun kimilərinin fikirləri iki qardaş ölkə arasında münasibətlərə zərrə qədər də təsir etməyəcək:** "Türkiyə Böyük Millət Məclisində, Türkiyə cəmiyyətində Azərbaycana güclü dəstək var. Azərbaycan-Türkiyə münasibətlərinə hər hansı formada xələl gətirmək istəyən şəxslər və ya partiyalar bununla yalnız özlərinə qəbir qazmış ola bilərlər. CHP-li deputatı da belə bir aqibət gözləyir. Aykut Ərdoğdunun əsassız iddiaları onun siyasi karyerasını parlamadan bitirəcək. CHP-nin nüfuzu da aşağı düşəcək. Aykut Ərdoğdu qaş qayırmaq istədiyi halda, necə deyərlər, öz partiyasının "göz"ünü vurub çıxardı. Bu isə hər kəsə - bütün "beşinci kolon"çulara dərs olmalıdır".

*Qeyd edək ki, Cümhuriyyət Xalq Partiyasını (CHP) təmsil edən millət vəkili Aykut Ərdoğdu Azərbaycanı ittiham edib. O, Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin qeyri-şəffaf olduğunu iddia edib.*

**İsmayıl**

# Siyasi mənzərə ölkəmizin rolunu artırır

## Azərbaycan Avropada imicini etibarlı tərəfdaş kimi formalaşdırıb

**Dünən Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında Azərbaycanla enerji tərəfdaşlığının əhəmiyyəti vurğulanıb.**

Bu barədə Avropa İttifaqının (Aİ) Qonşuluq və Genişlənmə üzrə komissarı Oliver Varhelyi "Twitter"də bildirib.

"Şərq Tərəfdaşlığı" üçün İqtisadi və İnvestisiya Planı davamlı enerji sektoruna və təmiz enerji keçidinə sərmayələri genişləndirəcək", - Aİ komissarı vurğulayıb.



**Azərbaycanın Avropanın enerji təhlükəsizliyi məsələsindəki rolu barədə "Şərq"ə danışan iqtisadçı Xalid Kərimli bildirib ki, bu sahədə əsas oyunçu Rusiyadır.**

"Avropanın hazırkı qaz istehlakı 550 milyard kubmetr ətrafındadır və ilbəil artır. Azərbaycanın Avropaya qaz hasilatı imkanları o qədər də çox deyil. TAP-ın illik qaz ixracı 10 milyarddır və maksimal 20 milyarda qədər artırıla bilər. TANAP-da bu göstərici 16 milyarddır və 30 milyarda qədər artırıla bilər. Bu borular genişləndirilsə belə ümumilikdə 20-25 milyard kubmetr qaz ixrac etmək potensialımız var. Yəni Azərbaycan Avropanın qaz tələbatının 3-4 faizini ödəyir. Orada əsas oyunçu Rusiyadır və 40 faizə qədər qaz təchizatını həyata keçirir. Bundan başqa Norveç, Əlcəzair, Qətər və digər ölkələr burada pay sahibidirlər.

Digər maraqlı məqam isə mərkəzi Asiya qazının Azərbaycan üzərindən Avropaya ixracı imkanlarının olmasıdır. Bu, mövcud Cənub Qaz Dəhlizinin genişləndiriləməsi hesabına ola bilər. İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində Türkmənistan, İran və Azərbaycan arasında ötən il saziş imzalandı. Nəticədə Azərbaycan Türkmənistandan qaz almaqla öz qazını daha çox həcmdə satışa çıxarmaq imkanı qazandı".

**İqtisadçı həmçinin qeyd edib ki, bizim potensialımız az olsa da, diversifikasiya baxımından əhəmiyyətliyik:**

"Həm də Azərbaycan öz imicini etibarlı tərəfdaş kimi formalaşdırıb. Neftdə və ya qazda Avropanın enerji təhlükəsliyinin qorunmasında ciddi rol oynamasa da, müqavilə öhdəliklərinə riayət edən etibarlı partnyor kimi mühüm rola malikdir. Bizim əsas məqsədimiz əməkdaşlıq etdiymiz ölkələri qaz ilə təchiz etmək və bu yolla öz büdcəmizi doldurmaqdır.

Biz bu bazarda Rusiyanın ciddi rəqibi deyilik. Ancaq Rusiyanın Avropa və Amerika ilə Ukrayna üzərindən münasibətlərinin gərginləşməsi alternativ marşrutların və Azərbaycanın rolunu artırır".

**Sənan İsmayıl**



# Yeni bazarlarda Azərbaycan qazına ehtiyac var

## Könül Nurullayeva: "Geosiyasi gərginlik fonunda Avropada etibarlı enerji təchizatçısı kimi Azərbaycana maraq artır"

**"Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm yer tutur. Fevralın 4-də Bakıda, "Gülüstan" sarayında keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında bir daha aydın oldu ki, Azərbaycanın liderliyi ilə reallaşan bütün layihələr uğur qazanıb və hər kəs bu layihələrdən qazanc əldə edir.**

Budəfəki toplantıda iştirakçıların sayının çoxluğu isə Cənub Qaz Dəhlizinə marağın ilbəil artdığını göstərir. Ümumiyyətlə, Məşvərət Şurasının hər il fevral ayında keçirilən toplantısı həm hesabat xarakteri daşıyır, həm də gələcək addımlar planlaşdırılır və hər il bu platformada müsbət nailiyyətlər əldə olunur. Bu mənada ötən il də istisna təşkil etməyib".

**"Şərq" xəbər verir ki, bu barədə millət vəkili Könül Nurullayeva bildirib. Xanım parlamentari qeyd edib ki, ötən ilin ən böyük uğuru isə mövcud mürəkkəb iqtisadi şərtlər fonunda Cənub Qaz Dəhlizinin tamamlanmasıdır:**

"Bu boru kəməri Gürcüstan, Türkiyə və Avropaya sabit və etibarlı qaz tədarükünü təmin edib. Prezident İlham Əliyevin də söylədiyi kimi, layihənin bütün iştirakçıları həqiqətən də komanda kimi çalışaraq bu uğura nail oldu.

XXI əsrin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizi bütün aparıcı beynəlxalq maliyyə institutlarının iştirakı ilə reallaşan azsaylı projelərdəndir. Nüfuzlu enerji və tikinti şirkətlərinin, investorların fəal iştirakı layihənin yüksək səmərəliliklə tamamlanmasını şərtləndirən əsas faktorlardan biridir. Budəfəki toplantıda ötən illə müqayisədə daha çox sayda ölkə və şirkətlərin iştirakı onu göstərir ki, yeni bazarlarda da Azərbaycan qazına ehtiyac var.

Beynəlxalq enerji mütəxəssisləri də qeyd edir ki, CDQ vasitəsilə Azərbaycan qazının Avropaya nəqli böyük əhəmiyyət daşıyır. Avropada mövcud qaz böhranı, Qərbi Balkanların enerji çatışmazlığından əziyyət çəkdiyini müşahidə edirik".

**Parlament üzvü diqqətə çatdırıb ki, Məşvərət Şurasının toplantısında əsas müzakirə olunan məsələlərdən biri də bərpa olunan enerji mənbələrinə dair perspektivlər oldu:**

"Azərbaycan beynəlxalq bazarlarda enerji resurslarının etibarlı təchizatçısı kimi buna da hazırdır. Prezident İlham Əliyevin bəyanatından aydın oldu ki, "yaşıl enerji" strategiyamız hazırda təkcə qiymətləndirilmə deyil, həm də planlamanın yekun mərhələsindədir. Bu, işğaldan azad edilmiş ərazilər üçün xüsusi proqramda öz əksini tapıb. Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual proqnoz da hazırdır. Yəni, Azərbaycan 30 ilə yaxın müddətdə işğal altında qalan ərazilərin potensialından düzgün istifadə edir.

Bu gün enerji qiymətləri artdıqca, geosiyasi gərginlik fonunda Avropada da şaxələndirilmənin əhəmiyyətini daha yaxşı anlayırlar. Bu mənada Azərbaycan artıq uzun illərdir özünü etibarlı enerji mənbəyi kimi sübut edən ölkə kimi öz rolunu daha da genişləndirir. Bu səbəbdən avrokomissarlar, eləcədə nüfuzlu ölkələrin rəsmiləri enerji sistemlərinin uzunmüddətli planlarını Bakıda müzakirə edir".

**Xanlar**

# Kitab qoxusu hələ yaşayır

## Milli kitabxanaya yolunu salanlar daha çox gənclərdir



lər".

Sərgi zalı ilə tanış olduqdan sonra 3-cü mərtəbəyə qalxaraq "Not nəşrləri və səsyazmaları şöbəsi"nə daxil oluruq. Şöbə müdiri Kəmalə Seyidova oxucuların əsasən musiqiçilər və Asəf Zeynallı adına konservatoriyanın tələbə və müəllimləri olduğunu bildirir:

"Şöbənin oxu zalında ziyarətçilər həm Azərbaycan, həm də dünya bəstəkarlarının musiqi əsərlərini mütaliə edirlər. Fonetika zalında isə CD disk vasitəsilə

### Gənclərin kitab eşqi yaşayır!

Nəhayət, reportaj üçün razılıq verilir.

Oxucularla bərabər mən də qeydiyyat otağına baş çəkirəm. Burada qeydiyyat şəxsiyyət vəsiqəsilə aparılır. Şöbənin işçiləri oxucuların şəxsi məlumatlarını sistemə daxil etməklə qeydiyyat prosesinin ilkin mərhələsini tamamlayır. Məlumatları virtual sistemə daxil edildikdən 1 dəqiqə sonra oxucuya plastik kart təqdim edilir. Qeydiyyat otağını tərk edib kitabxanaya doğru addımladım.

Turniketə yaxınlaşıb plastik kartımdan istifadə edərək Mirzə Fətəli Axundovun büstünə tərəf qalxıram. Əvvəlcə əsas oxu zalına keçdim. Həftəiçi olduğundan oxucuların az olduğu diqqətimi çəkdi. Gələn ziyarətçilərin əksəriyyəti gənclərdir. Deməli, gənclərdə kitab eşqi hələ yaşayır.









### Aparat vasitəsilə arxivdəki lentləri oxumaq mümkündür

Müşayiətçi ilə birlikdə oxu zalından ayrılıb sərgi zalına doğru irəliləyirik. Kənardakı aparat diqqətimi çəkdi. Qurğunun "mikrofilm" adlandırıldığını öyrəndim. Aparat vasitəsilə arxivdəki lentləri oxumaq mümkündür. Daha sonra sərgi otağı ilə tanış oldum. Burada lövhəyə "Yeni kitablar", "Əziz Şuşa, biz səni dirçəldəcəyik", "2 Fevral Gənclər günü" kimi yazılar diqqətimi cəlb etdi. "Yeni kitablar"da kitabxanaya daxil olan təzə kitablar nümayiş olunur. "Əziz Şuşa, biz səni dirçəldəcəyik"in isə "Şuşa ili"nə həsr edilən daimi sərgi olduğunu öyrənirəm.

### XVI əsrdən XX əsrin əvvəlinə kimi nadir kitablar...

Sərgi zalından digər zala keçid edirik. Nadir kitablar və kitabxana muzeyi şöbəsinin müdiri Gülsəidə Abdullayeva bu zalda kitabxananın bütün fondlarından bu günə qədər yığılan qədim nəşrlərin toplanıldığını qeyd edir:

"Fondda dilindən, əlifbasından, nəşr yerindən asılı olmayaraq XVI əsrdən XX əsrin əvvəlinə kimi olan kitablar toplanıb. Bütün nəşriyyatlarda çap olunan kitabların bir nüsxəsi kitabxanaya verilir. Buradakı ən qədim kitab 1573-cü ilə aid "Homerin Hesiodla mübahisəsi" əsəridir. Fondda Miniatür kitablar kolleksiyası da var.

Miniatür kitabların sayı 800-ə yaxındır. Həmçinin Nizami Gəncəvinin, Əlişir Nəvainin daş basma nəşrləri də fondda saxlanılır. "Molla Nəsrəddin" jurnalının orjinalını da oxucular bizim fondda görə bilər bir oxucu musiqiləri kompüterdə səsləndirərək dinləyə bilər".

Musiqi zalını da gördük. İndi isə oxucuların dincəlməsi üçün nəzərdə tutulan "Book Cafe" ilə tanış olduq. Məlumat verdilər ki, kafe yeni təmir edilib. Burada ziyarətçilər kitab oxuyaraq çay, kofe, içib, şirniyyatların dadına baxa bilər.

### "İmtahanlar vaxtı dərslərimə burada hazırlaşıram"

Kafedə əyləşib kitab oxuyan xanıma yaxınlaşıb fikirlərini öyrəndim.

**Lamiyə Babayeva "Book cafe"də qiymətlərin qaneedici olduğunu dedi:**

"Boş vaxtlarımda kitabxanaya gəlib bədii əsərlər oxuyuram. Xüsusilə imtahanlar vaxtı dərslərimə burada hazırlaşıram. Yorulanda gəlib kafedə çay içib dincəlirəm. Buranın dizaynı çox xaşıdır. İşçilər də bizi gülərüzlə qarşılayır".

**Bütün otaqları mənimlə bərabər dolaşan şöbə müdiri Könül Kərimovaya vaxt tapıb suallar verməyi də unutmadım. O, kitabxana istifadəçilərinin əksəriyyətinin tələbə olduğunu bildirdi:**

"Ən çox oxucu şənbə və bazar günləri gəlir. Buna səbəb də həftəsonları iş və təhsil müəssisələrində istirahət günü olmasıdır. Pandemiyadan əvvəl oxucu sayı min nəfərdən çox olurdu. İndi isə karantin qaydalarına uyğun olaraq 400-500 nəfər qiraət edə bilər. Həftəiçi isə təqribən 300 nəfər oxucumuz olur".

### "Elektron bazada cəmi 1 milyon 292 min 289 resurs yerləşdirilib"

**"Kitablar Vətəni"nin elektron resursları barəsində də məlumat əldə etdik:**

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanuna uyğun hazırlanan elektron kitablar oxuculara onlayn oxu modulu ilə təqdim olunur. Modulda elektron kataloq vasitəsilə kitabların əlçatanlığı asanlaşdırılıb. Kitabları "axtarış" bölməsindən rahat tapmaq olur. Hazırda kitabxananın elektron bazasında cəmi 1 milyon 292 min 289 resurs yerləşdirilib.

*Kitabxanadakı kitab sayının məhdud olması ilə bağlı sualımın cavabında öyrəndim ki, hər bir kitabın maksimum 4 nüsxəsi var:*

"Milli kitabxananın fondu 4 miyon 619 min 345 nüsxə təşkil edir. Bir kitabın nüsxəsinin sayı çox olmadığından kitablar həm də oxuculara elektron şəkildə təqdim edilir. Bu həm də vaxt itkisinin qarşısını alır".

### "Kitabxanada fasiləsiz Wİ-Fİ sistemi quraşdırılıb"

Şöbə müdiri K.Kərimova zallarda oxucuların istifadəsi üçün tam şəraitin yaradıldığını söylədi. Onun sözlərinə görə, kitabxanada fasiləsiz Wİ-Fİ sistemi quraşdırılıb. Həmçinin otaqların istilik və sərinlik səviyyəsi tənzimlənir.

Söhbətimiz əsnasında sürətçıxarma vasitələrindən istifadə qiymətini də öyrəndim. Kitabın hər səhifəsi 2 qəpikdən hesablanır. Fiziki qüsurlu şəxslərdən isə ödəniş alınmır.

**Şöbə müdiri Milli Kitabxanadakı bütün xidmətlərin ödənişsiz olduğunu vurğuladı:**

"Qeydiyyatdan keçmə, kitabın əldə edilməsi və digər bütün xidmətlər ödənişsiz şəkildə ziyarətçilərimizə təqdim edilir".

### Bəs onda uşaq zalı nə üçündür?

Artıq yorulmuşdum. Amma yeni istifadəyə verilən uşaq zalının olması mənə maraqlı gəldi. Qeydiyyat otağından əldə etdiyim məlumatda kitabxananın 16 yaşdan yuxarı şəxslər üçün nəzərdə tutulduğunu söyləmişdilər. Bəs onda uşaq zalı nə üçündür?

**Uşaq zalı barəsində böyük kitabxanaçı Fidan Saniyevadan məlumat aldım. O, bu zalın uşaqların valideynini gözləməsi üçün nəzərdə tutulduğunu bildirdi:** "Uşaq şöbəsi 2020-ci ilin dekabrından fəaliyyət göstərməyə başlayıb. Valideyn yuxarıda kitab oxuyarkən uşaqları burada gözləyə bilər. Burada uşaqlar üçün nəzərdə tutulan ədəbiyyatlar, kitablar var. Əgər kitab oxumaq istəmirlərsə, o zaman televizor vasitəsilə cizgi filminə baxa bilərlər. Burada uşaqların gözləməyi ilə bağlı vaxt limiti yoxdur". Artıq kitabxanadan ayrılmaq vaxtıdır. İşçilərlə sağollaşıb oranı tərk etdim. Çıxışda bir oxucu ilə də həmsöhbət oldum. Travmotoloq-ortoped Fərid Əbilov kitabxana barədə fikirlərini bizimlə bölüşdü: "Kitab oxumağı çox sevirəm. Çalışdığım sahə üzrə biliyimi artırıram. İstədiyim kitabı başqaları oxuduğu vaxt elektron versiyadan istifadə edirəm. Narazı olduğum bir məsələ var. Yeni kitabları tapa bilmirəm. Sahəm üzrə yalnız 2018-ci ilə qədərki kitablar var. Təzə kitablar gətirilsə çox yaxşı olar".

**Hazırladı: Xanlar Əlibəy**

---

## "Xoş gəldin, bəbəmiz"

Təranə Qumralın nəvəsi dünyaya gəlib



**Müğənni Təranə Qumral sosial mediada paylaşım edib.**

"Şərq"in məlumatına görə, T.Qumralın qızı Fidanın oğlu dünyaya gəlib. O, "Xoş gəldin, bəbəmiz" sözlərini qeyd edərək fotoları izləyiciləri ilə bölüşüb.

Körpənin adını Mir Rauldur.

**Aygün Tahir**

## "Həyatıma Günəş doğur"

Lalə Məmmədova eşq yaşadığını etiraf edib



**Əməkdar artist Lalə Məmmədova şəxsi həyatı ilə bağlı diqqət çəkən fikir bildirib.**

"Şərq"in məlumatına görə, "Şourum" verilişinə danışan Əməkdar artist eşq həyatında baş verən dəyişiklikləri açıqlayıb:

"Şəxsi həyatıma Günəş doğur, işıqların hiss edirəm. İnsanın içərisində müəyyən hisslər cücərirsə, o nə qışı, nə yazı gözləyir. Mənim içimdə duyğular var. Hələki tanıma mərhələsindəyik. 43 yaşımı sevməyə başladım, həyata gözüm bir başqa cür açıldı".

**Aygün Tahir**


**Hörmətli "Nar" abunəçiləri**

18.02.2022 tarixindən etibarən "Nar"ın köhnə "Yerlim" tarifində dəyişikliklər olacaq. Daha ətraflı məlumat www.nar.az səhifəsində yerləşdirilib.


**Elan**

Əsgərov Elçin Sabutay oğluna məxsus SX 0265385 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin Çevik Xilasetmə İdarəsi tərəfindən Rəcəbov Raci Kənan oğluna verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baxşiyeva Dəstəgül Camammədqızına məxsus şəxsiyyət vəsiqə və əmək kitabçası itdiyi üçün etibarsız sayılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-**MÜHASİBAT** (2 AY)

-**Mobil telefonların təmiri** (3 ay)

-**KOMPYUTER** (1-3 AY)

-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

-**Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


---

## Bir layihəyə 40 min dollar xərcləyib

Nadir Qafarzadə oğlunun istəyini ürəyində qoymayıb



**Müğənni Nadir Qafarzadə övladına görə rus şou-biznesinə xərclədiyi məbləği açıqlayıb.**

"Sherg.az"ın məlumatına görə, "Şourum"un kameralarına tuş gələn müğənni dodaq uçuqladan vəsait sərf edib:

"Oğlum Əziz dedi ki, "burda oxuyan çoxdur, mən özümü orada görə bilirəm". Xətrinə dəymədim. Hələki sponsoru yoxdur, kömək edirəm. Bir layihə üçün 40 min dollar xərcləmişəm. Çox bahalı ölkədir. Oğlum kimi ya da ondan yaxşı oxuyanlar var. Şans söhbətidir, bunu zaman göstərər. Hər halda onun istəyini ürəyimdə qoymadım. Bir ata olaraq boynuma düşən vəzifəni yerinə yetirirəm, dəstək oluram".

**Aygün Tahir**

## Kərimə irad tutdular

"Barmen"i icazəsiz səsləndirib



**Müğənni Kərim Abbasov həmkarları Tural Everest və Ruslan Dobrının "barmen" musiqisini ifa edib.**

"Şərq"in məlumatına görə, "Şourum"a açıqlama verən T.Everest onun bu musiqini icazəsiz səsləndirdiyini söyləyib:

"Arada "olar, yoxsa yox?" deyə yazmaq olardı. Kərimlə Moskvada toyda görüşdük. Məni görəndə halallıq istədi. Dedim ki, halal olsun, oxu".

R.Dobrı isə "biz ondan yaxşı oxuduq ha" deyə qeyd edib.

**Aygün**

# Onlar utanırlar, dövlət orqanlarına müraciət etmirlər

## Məişət zorakılığına məruz qalan kişilərin statistikasını aparmaq mümkün deyil



**Məişət zorakılığına məruz-qalma faktı ilə bağlı ötən il Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə müraciət edənlər arasında qadınlar üstünlük təşkil etsə də, kişilər də eyni problemi yaşayır. Ötən il Komitəyə müraciətlər edənlər arasında 42 kişi olub. Bu barədə Komitədən bildirilib. Ümumilikdə ötən il məişət zorakılığı ilə bağlı rəsmi ərizə əsasında Komitəyə 340 müraciət daxil olub.**

Kişilərə qarşı zorakılıq isə ümumi zorakılıq hallarının 5 faizindən də aşağıdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hüquqi təminat şöbəsinin əməkdaşı, məişət zorakılığının qarşısının alınması üzrə sektorun məsul işçisi Tural Hüseynzadə "Sputnik Azərbaycan"a açıqlamasında qeyd edib ki, kişilərə qarşı törədilən zorakılıq hallarında psixoloji faktorlar üstünlük təşkil edir. Lakin bu, ümumi müraciətlərin 5 faizini keçmir. Uzun illərdir, bu faiz olduğu kimi qalır. Apardığımız araşdırmalar daha çox qadınlar və uşaqların zorakılığa məruz qaldığını təsdiq edir. Göründüyü kimi zorakılığa məruz qalan kişilər də var və onların sayının azlığı problemin olmamasına dəlalət etmir. Kişilərin müraciəti isə əsasən məişət zorakılığı və psixoloji zorakılıqla bağlıdır.

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında zorakılığa məruz qalan kişilərin nadir hallarda dövlət orqanlarına müraciət etdiyini dedi:**

- Zorakılığa məruz qalan kişilərin buna görə dəqiq statistikasını aparmaq mümkün deyil. Çünki qadınlardan fərqli olaraq kişilər zorakılığa məruz qaldıqlarını bildirmir. Zorakılıq faktlarını gizlədən qadınlar varsa, kişilər də var, deməli. Kimisi utandığından, milli mentalitet baxımından gizlədir belə faktları. İl ərzində bir-iki kriminal xarakterli hadisəni nəzərə almasaq, kişilər adətən psixoloji zorakılığa məruz qalır. Ayrıldıqları həyat yoldaşları, övladlarının anası, qadının ailə üzvləri, münasibətdə olduqları qadınlar tərəfindən. Yaxud ailə münaqişəsi zəminində öz həyat yoldaşı, ya da qayınana tərəfindən. Burada iqtisadi amillər də rol oynayır. Həyat yoldaşının maddi tələbləri bəzən kişilər tərəfindən psixoloji təzyiq kimi qəbul edilir. Amma belə müraciətlər də müntəzəm olmur. Müraciət edilirsə, əlbəttə araşdırılmalı və sübutlar ortaya qoyulmalıdır. Ümumiyyətlə, ailədə zorakılıq faktı varsa, bu, birtərəfli olmur. Qadına qarşı zorakılıqda kişi iştirak edirsə, bu həm də kişiyə qarşı psixoloji zorakılıq faktı yaradır. Bu səbəbdən də ailə-məişət problemlərinin hər iki tərəfin iştirakı ilə həllinin tərəfdarıyıq.

**Məlahət Rzayeva**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 414



## Bacı və qardaşını boğüb öldürdü

### 17 yaşlı gəncə 100 il həbs cəzası verildi

**2017-ci ildə baş verən və yalnız ABŞ-ın deyil, dünyanın da qanını donduran cinayət hadisəsi ilə bağlı qərar açıqlanıb. Bacı-qardaşını boğaraq qətl edən gəncə məhkəmə tərəfindən 100 il həbs cəzası verilib.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, çox körpə yaşlarında olan bacı və qardaşını öldürən qatil hadisənin izahını da belə vermişdi: ”Onları şeytandan və cəhənnəmdən qurtarmaq istədim”.

Hazırda 17 yaşında olan Nickalas Kedrowitz, cinayətləri törədərkən 13 yaşında olub. 23 aylıq olan bacısını və 11 aylıq qardaşını boğaraq öldürən Nickalas Kedrowitz, bu cinayətinin hər biri üçün 50 il cəza alaraq, bütövlükdə 100 il həbs cəzasına məhkum edilib.

Nickalas Kedrowitz cinayətləri 2017-ci ilin may ayında törətmişdi. İki uşaq da evlərində polis tərəfindən aşkarlananda nəfəs almırdı.

Məlum olub ki, ailələri uşaqları böyük qardaşları Nickalasa tapşırıblar. Cinayəti törətdikdən və bacı-qardaşı öldükdən sonra Nickalas ailəsinə onların tənəffüs almaqda çətinlik çəkdiklərini və həmin anda keçindiklərini deyərək yalan söyləmişdi. Gerçəkdə isə onları boğaraq öldürmüşdü...

Məhkəmə işində qeyd olunur ki, Nickalas bacısını dəsmalla, qardaşını isə ədyalla boğub.

Polis sorğusunda bacı-qardaşlarını cəhənnəmdən qurtardığını söyləyən qatilə ”bu cəhənnəmin nə olduğu” soruşulan zaman Nickalas ”ev işləri” deyə cavab vermişdi. Nickalas, polislərə eyni zamanda tanrıyla bacı- qardaşları haqqında danışdığını, ancaq bunu bir sirr olaraq saxlayacağını bildirib.

**Turan**

## İstanbulda faciə yaşandı

### Azərbaycanlı arvadını, sonra özünü güllələdi



**İstanbulda ötən gün yerli vaxtla saat 16.00 radələrində 38 yaşlı Özal Toraman özəl xəstəxanalardan birində xəstə baxıcısı işləyən arvadı, Azərbaycan vətəndaşı Cemile Toramanla mübahisə edib.**

Virtualaz.org xəbər verir ki, Maltepe rayonunda, 7 mərtəbəli binalardan birində yaşayan ər-arvad arasında yaranmış mübahisədə Özal Toraman əkiz qız uşaqlarını evin otaqlarından birinə qoyaraq qapını bağlayıb, daha sonra arvadına tapançadan atəş açıb. Daha sonra həmin tapança ilə özünü vuraraq intihar edib. Hadisə yerinə gələn polis və təcili yardım briqadası Özal Toramanın artıq keçindiyini görüblər, Cəmilə Toraman isə ağır yaralı halda xəstəxanaya yerləşdirilib. Özal Toramanın gəmi tərsanələrindən birində işlədiyi bildirilir.

Qonşular deyiblər ki, ər-arvad bir müddətdir bu binada yaşayırdı və onların arasında heç vaxt mübahisə olduğunu eşitməmişdilər. Onların arasında mübahisənin hansı səbəbdən baş verdiyi bilinmir. Ər-arvadın kimsəsiz qalan azyaşlı uşaqları qonşuların himayəsinə verilib.

## 40 min avro zərər

### Oğrular superkarı kərpic üstə qoydular



**”Lamborghini Huracan Spider”-in sahibi Afina ətrafında oğurların qurbanı olub.**

**Onlar superkarın təkərlərini və ön əyləc disklərini oğurlayaraq, dəbdəbəli avtomobili kərpiclərin üzərində qoyublar. Oxu.az əbər verir ki, cinayətkarları tapmaq mümkün olmayıb. Yunan polisinin məlumatına görə, zərərin məbləği 40 min avrodan çoxdur. Yerli media təkərsiz superkarın bloger və sahibkar, Livanın ”Bürc” futbol klubunun prezidenti və ”ArabicaTV”-nin sahibi Adnan Yassinə məxsus olduğunu bildirib.**

## 1,9 milyon dollar ayırılacaq

### Avtomobillərin enerji ilə yüklənməsinə şərait yaradacaq yollar tikilir



**ABŞ-ın Miçiqan ştatındakı Detroyt şəhərində yolun 1,6 kilometrlik hissəsi elektromobillərin hərəkətdə olduğu zaman elektrik enerjisi ilə yüklənməsinə imkan verəcək. Bundan ötrü avtomobil sahibləri nəqliyyat vasitələrinə xüsusi qəbuledici quraşdırmalıdırlar. Azərtac xəbər verir ki, Miçiqan ştatının administrasiyası 2023-cü ildə tam işə salınacaq layihəyə 1,9 milyon dollar ayırmağı planlaşdırır. Yolun işlək hissəsi elektromobillərin hərəkətdə yaxud dayanacaqda olub-olmamasına baxmayaraq, induktiv yüklənmə adlanan prosesin köməyi ilə onları enerji ilə dolduracaq. Bu proses enerjini yolun altına basdırılan metal çarxlardan elektromobilin aşağı hissəsində yerləşən xüsusi qəbulediciyə ötürmək üçün maqnit tezliyindən istifadə edir.**

**Miçiqan ştatının qubernatoru Qretçen Uitmer deyib: ”Biz mobillik və elektrikləşdirmə sahəsində lider olmağa, elektromobil istehsalını artırmağa və bununla da istehlak xərclərini azaltmağa çalışırıq. Bu səbəbdən yollarda naqilsiz elektrik enerjisi yüklənməsi sistemi dayanıqlılığın təminatı üçün başlıca məqsəddir”.**

**Analitiklərin hesablamalarına görə, bir avtomobil üçün xüsusi qəbuledicinin quraşdırılması 3000-4000 dollara başa gələcək. Buna baxmayaraq, ideyanın müəllifləri ümid edirlər ki, bu qiyməti 1000-1500 dollara endirmək mümkün olacaq.**








# Gözlənilməz körpələr...

### Qadınlar bəzən hamiləliklərindən xəbərsiz dözülməz həyat tərzi yaşayırlar

**Xəbərsiz hamiləliklər və gözlənilməz körpələr. Belə hadisələrə tez-tez olmasa da, hər halda rast gəlinir. Bəzən qadınlar hamilə olduqlarından xəbərsiz halda gündəlik işlərinə davam edir, qəfil baş verən ağrı isə planlaşdırılmamış körpənin dünyaya gəlməsiylə nəticələnir.**

Belə bir hadisə ABŞ-ın Massaçusets ştatında baş verib. ”Şərq” ”7 News” saytına istinadən bildirir ki, Boston şəhərinin sakini Kayla Fustamante çalışdığı restoranda adi iş günlərinin birində belində kəskin ağrı hiss edib. İşarası fasilə edən qadın internetdə axtarış verərək belindəki ağrının səbəbini öyrənməyə çalışıb. Qarşısına müxtəlif mülahizələr çıxıb. Biri də böyrəkdə daş olma ehtimalı imiş. Qərara gəlib ki, evə qayıdanda ağrıkəsici qəbul etsin və uzansın. Lakin rəfiqəsi daha ağıllı məsləhət verib və Kaylanı həkimə getməyə vadar edib. Xəstəxanada boş palata olmadığından Kayla dəhlizdə qoyulmuş çarpayıda uzanıb. Həkim əvvəlcə yumurtalıqdakı kistin partlamasından şübhələnib. Qadın USM aparatı ilə müayinə edilib. Aparat 38 həftəlik hamiləlik göstərdiyində Kaylanın heyrətdən az qala dili tutulub. Həkim ”siz bu gün körpə dünyaya gətirəcəksiniz” deyəndə isə Kayla çox təsirlənib və ağlaya-ağlaya ailəsinə zəng vurub. Körpənin atası həyat yoldaşını dəstəklədiyini deyib və ”nə olursa olsun, sənin yanındayam”, söyləyib. Az keçmiş Kaylanın qızı dünyaya gəlib. Körpə sağlam olub. Fustamante etiraf edib ki, körpənin sağlamlığı üçün narahatlıq keçirirdi. Çünki dostlarıyla tez-tez bara gedirdi, düzgün qidalanmırdı. Hamilə ola biləcəyini də ağlına gətirməyib. Buvaxtadək menstrual dövriyyədə sapmalar olub, artıq çəki almasını isə Kayla makaron məmulatları və sarımsaqlı çörək çox qəbul etməsi ilə əlaqələndirib.




**Oxşar hadisə Kanadada baş vermişdi. Kanadalı Əşli Miller-Kross supermarketdə alış-veriş edərkən sancısı tutub.** Məlum olub ki, qadında doğuş proses başlayır. Bu, Əşli üçün lap gözlənilməz olub. Çünki cəmi 10 ay əvvəl o, ilk övladını dünyaya gətirib. Belə qısa zamanda ikinci dəfə hamilə qala biləcəyini ağlına belə gətirməyib. Artıq çəkini isə ilk doğuşdan sonra hələ də aradan qalxmayan köklüklə bağlayıb. Başqa bir xanım - Eda Quan isə Kalqaridən Tokioya uçan təyyarədə - yerdən 10 min metr yüksəklikdə qız övladını dünyaya gətirib. Eda Quan da çəkisinin artmasını sadəcə köklüklə əlaqələndirərək hamilə ola biləcəyini düşünmürmüş, çünki bir müddət əvvəl hamiləlik testinin cavabı neqativ çıxmışdı.

**Məlahət**



# Kitab qoxusu hələ yaşayır

### Milli kitabxanaya yolunu salanlar daha çox gənclərdir

**”Kitablar Vətəni”ndən reportaj hazırlamaq çoxdankı arzum idi. Nəhayət, niyyətim gerçəkləşdi, Mirzə Fətəli Axundov adına Milli Kitabxananı ziyarət etdim.**

Buraya ilk gəlişim deyildi. Kitabxanaya üzvlük kartımı pulqabımdan çıxardıb diqqətlə nəzərdən keçirdim. Həmişə kitabxanaya universitet dərslərinə hazırlaşmaq məcburiyyətindən gedərdim.

Vaxtımın çoxunu sevmədiyim mövzuların araşdırmasına sərf edərdim. Dincəlməyin yolu bədii kitab oxumaqda idi. Kitabxananı tərk etmədən bədii kitab götürüb oxuyardım. Son zamanlar təəssüf ki, gedə bilmirdim.

Yol boyu kitabxana haqqında məlumatımı artırmaq üçün internetdəki mənbələrə nəzər yetirdim. Kitabxanaya yaxınlaşdıqca 2-ci mərtəbəsindəki böyük yazıçıların simaları kitab oxumağın uğura gedən yol olduğunu bir daha təsdiqləyir.

Qapıdan içəri keçdim. Turniketlərin yaxınlığındakı polislər ”COVID” pasportumu yoxladıqdan sonra onlara jurnalist olduğumu söyləyib, icazə üçün gözlədim. Vaxt itirmədən qiraətini bitirib kitabxanadan ayrılan oxuculara yaxınlaşıb fikirlərini öyrəndim.





#### “Kitabxana tələbə ilə dolur”

**Magistr Ramil Cəfərzadə bildirdi ki, kitabxanada şərait yaxşıdır:**

”Burada kitab müxtəlifliyi var. Əsasən tarixi, diplomatik, beynəlxalq münasibətlərlə bağlı kitablar oxuyuram. Elektron versiyadan daha çox əyani olaraq kitab oxumağa üstünlük verirəm. Kitabxanaya əsasən imtahanlar vaxtı baş çəkirəm, onda da yer tapmaq çətin olur. Kitabxana tələbə ilə dolur. İnsanlar arasında məsafə məhdudiyyəti olduğundan yer sayı da azaldılıb. Əvvəlki dövrdən fərqli olaraq bufetdə yalnız çay verilir. Ona görə gedib çöldə nəsə tapıb yeyirik. Bufet fəaliyyətini davam etdirsə, çox yaxşı olar”.

#### “Kitabların evə aparılmasına icazə verilmir, bundan narazıyam”

**Kitabxanaya gələn daha bir tələbə ilə söhbətləşirik. Şəlalə Baxışova işçilərin mehribanlığına diqqət yönəldir, bunun oxucularda müsbət ovqat yaratdığını deyir:**

”Bura bədii kitablar oxumağa gəlirəm. Boş zamanlarımda klassik, fantastik ədəbiyyat nümunələrinə diqqət ayırıram. Kitabların evə aparılmasına icazə verilmir, bundan narazıyam. Bəzi kitabları, ümumiyyətlə, tapa bilmirik. Elə olur ki, bizə elektron versiyadan istifadə etməyimiz tövsiyə olunur. Onlayn oxumağı sevmirəm. Çünki canlı kitabla eyni hissi vermir”.

*(Davamı səh: 7-də)*

**Hazırladı: Xanlar Əlibəy**

## Dünyanın ən şanslı bəyi

### Toy bir həftə davam edib



**Dünyanın ən zəngin adamları arasında yer alan Bruney Sultanı Hassanal Bolkiaxın qızı Fadzillah Lubabul iraqlı Əl Haşimi ilə bir həftə davam edən möhtəşəm toy mərasimi ilə evlənib.**

“Şərq” xarici mətbuata istinadən xəbər verir ki, gəlinin geyimi, zinət əşyaları, toyun təntənəsi diqqəti cəlb edib.

Vaxtı hələ ötən ilin dekabrında açıqlanan toyda şahzadə Fədzillah Lübabulun çoxsaylı geyim dəyişikliyi və şişirdilmiş zinət əşyaları da hər kəsin marağına səbəb olub.

*Qeyd edək ki, ərazisi Türkiyənin İstanbul şəhərindən kiçik olan ada ölkəsi Bruneyi 1968-ci ildən bu günə kimi idarə edən Hassanal Bolkiaxın 40 milyard ABŞ dollar məbləğində sərvəti, 3 arvadı, 5 oğlu və 7 qızı var. Şahzadə Malik Sultanın altıncı övladıdır, anası isə Sultanın birinci arvadıdır.*

***Turan***

## Qiyməti 200 min dollardır

### Corcina Ronaldoya ”Cadillac Escalad” hədiyyə edib



**Corcina Rodriges sevgilisi, dünya şöhrətli futbolçu Kriştiano Ronaldoya ad günündə avtomobil hədiyyə edib.**

Axşam.az xəbər verir ki, bu barədə Corcina instaqram hesabında paylaşım edib.

”37 yaşın mübarək, həyatımın sevgisi. Səni sonsuz sevirik. Sən Allahın bizə verə biləcəyi ən yaxşı ata və həyat yoldaşısan. Başına gələn ən gözəl şeylərə layiq olan əsl döyüşçü. Sən mükəmməl və ilham qaynağısan” - deyə, o, yazıb.

Qeyd edək ki, ”Cadillac Escalad” markalı avtomobilin qiyməti 200 min dollardan çoxdur.

*Onu da qeyd edək ki, cütlüyün Alana Martina adlı 4 yaşlı qızı var. Ronaldonun 11 yaşlı Kriştiano adlı oğlu, Yeva və Mateo adlı əkizləri surroqat anadan dünyaya gəlib. Hazırda ikili biri qız, digəri oğlan olmaqla əkiz övladlarının dünyaya gəlməsini gözləyir.*